Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

10
DEKABR
2019-cu il

№ 219 (4117)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİ İDEOLOQLARI HƏMSƏDRLƏRİN BRATİSLAVA GÖRÜŞÜNÜ ÇOX KİÇİK MƏSƏLƏYƏ BAĞLADILAR - GUYA AZƏRBAYCANIN AŞAĞILANMASI XATİRİNƏ...

■ səh. 5 ■

Beynəlxalq arenada yeni qəti rəy - Ermənistan üzündən 2019-cu il itirildi və Qarabağ müharibəsinə doğru bir addım da atıldı...

■ səh. 9 ■

YAP-ın öz namizədlər siyahısını açıqlamasını gözləyən iddiaçılar - məqsəd nədir...

■ səh. 3 ■

Mikayıl Cabbarov erməni nazir müavininə Heydər Əliyev Mərkəzində İrəvanın tarixi ilə bağlı nələri göstərdi...

■ səh. 3 ■

Sabiq prezident Serj Sarkisyan "Qarabağ klanı"na xəyanət etdi...

■ səh. 10 ■

Paşinyan yeni il şənliyinə 700 min dollar ayırıb, İrəvanda 4500 lift qəzalı vəziyyətdə - əhalidən ağır sosial ittiham...

■ səh. 7 ■

7 minlik Gülçülük qəsəbəsində məktəb yoxdur - hər şagird ayı 30 manata "RAF"la qonşu məktəblərə gedir

■ səh. 15 ■

Səhnəyə çıxandan sonra əsl ad-soyadını təxəllüslə əvəzləyən şou adamları - kimlər bu təxəllüsü niyə götürüblər...

■ səh. 15 ■

MÜSAVAT

## Seçki radikal düşərgəni yenə parçaladı - Müsavat seçkiyə getdi, Kərimovçu Milli Şura təkləndi...

■ səh. 6 ■



Rus deputat Zatulin Zaxarovanın üstünə yeridi - səbəb Qarabağ münaqişəsi və faşist Njde məsələsidir...

■ səh. 4 ■



Ermənilərin AŞPA-da Azərbaycan üçün yanlış məğlubiyyət görüntüsü yaratmaq cəhdi - Azərbaycan «Metsamor»u beynəlxalq sənədlərdə çoxdan qapadıb...

■ səh. 7 ■

Üç güclü dövlət BMT-yə İran barədə məktub yazdı - «nüvə daşıyan raketlər istehsal edilir...»

■ səh. 8 ■

■ səh. 4 ■

AKP Türkiyədə deputat erməni Paylanın dövlətin suverenliyi əleyhinə fəaliyyətlərinə nə qədər dözəcək...



■ səh. 12 ■

Deputatlıq iddiaları püskürən bir çoxları - yazdıqları status və plakatlarda rüsvayçı qrammatik səhvlər...



■ səh. 13 ■

Kredit borcuna görə banklar girov əmlakı məhkəməsiz müsadirə edəcək?...



■ səh. 13 ■

10-200 manatlıq əskinaslarla bağlı terminallarda yaranmış problem...



■ səh. 14 ■

Övladlığagötürmənin yeni və köhnə qaydaları arasında fərqlərə bağlı müzakirəyə ekspertlər də qoşuldu...



# Mehriban Əliyevanın Moskvada əldə etdiyi daha bir böyük razılaşma rəsmi təsdiqləndi

*Prezident İlham Əliyev Rusiyanın İqtisadi inkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi*

**Prezident İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi inkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib:

-...Yüksək səviyyədə, prezidentlər arasında çox mühüm görüşlər olub. Beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdən əlavə, prezidentlər arasında iki görüş olub. Sizin də iştirak etdiyiniz həmin görüşlərdə bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizin əsas, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı prinsipləri təsdiq edilib. Prezidentlər "yol xəritələri"nin implementasiyası üzrə işi fəallaşdırmaq barədə tapşırıq veriblər. Şadam ki, bu proses çox uğurla gedir.

Mehriban Əliyevanın Moskvaya səfəri çərçivəsində də "yol xəritələri" siyahısının genişləndirilməsi razılaşdırılıb ki, onlar yeni sahələri əhatə etsin. "Yol xəritələri"nin reallaşmasının yaxşı nəticələr verdiyini nəzərə alsaq, bu çox vacibdir. Ona görə də bu siyahıya yeni istiqamətlərin əlavə edilməsi, əlbəttə ki, bizim əməkdaşlığımızın məntiqi davamıdır.

...Mən onu da bilirəm ki, bu gün Azərbaycanda çox mühüm investisiya layihəsinin - əczaçılıq müəssisəsinin açılışı olacaq. Bu istiqamətdə Azərbaycan bazarının genişlənməsini, əhalinin və istehlakın da artmasını nəzərə alsaq, bu çox sevindirici haldır. Əlbəttə ki, biz bazarı özümüzün istehsal etdiyimiz məhsullarla zənginləşdirməkdə maraqlıyıq. İndiki halda Rusiya şirkətinin Azərbaycanda istehsalı başqa istiqamətlərdə, maşınqayırma, energetika və nəqliyyatda olduğu kimi, bizim münasibətlərimizin yaxşı göstəricisidir. Samur çayı üzərindən körpünün tikintisi praktiki olaraq başa çatdırılıb. Bu da onun nəticəsidir ki, yüksək səviyyədə qəbul edilən bütün qərarlar yerinə yetirilir. Zənnimcə, bu, bizim münasibətlərimizin əsas nailiyyətlərindən biridir. Biz qarşıya konkret məsələlər qoyur, onları konkret həll edir və yaxşı nəticələr görürük.



Əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun ilkin görkəmdə bərpa olunmasını məmnuniyyətlə qeyd etməliyəm. Mən bu pavilyonun açılışına televizorla baxmışam, sonra isə bizim telekanallarda çoxlu reportajlar göstərilib. Bu, əlbəttə, bizim münasibətlərimiz üçün çox böyük əhəmiyyət kəsb edən olduqca əlamətdar hadisə və bizim ortaq tariximizə hörmət əlamətidir. Düşünürəm ki, bu pavilyon Azərbaycan mallarını Rusiya bazarlarında çox fəal təbliğ edəcək.

Sonra Rusiya Federasiyasının İqtisadi inkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlət başçısına çatdırıb.



## Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinə yeni seçkiləri fevralın 9-na təyin etdi...

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dekabrın 9-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

"Trend"in məlumatına görə, sərəncamda bildirilir ki, beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli Sərəncamına uyğun olaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.

## Türkiyənin 20 rayonu Ermənistanın tərkibinə "qatıldı"...

**Türkiyənin qeyri-hökumət təşkilatı Xarici İşlər Nazirliyindən Ermənistana etiraz notası göndərməyi tələb edir.**

"Trend"in məlumatına görə, bu bəyanatla Türkiyə-Azərbaycan Dostluq Assosiasiyasının vitse-prezidenti Sərdar Ünsal çıxış edib.

Buna səbəb kimi Ermənistanın "Western Armenian TV" telekanalında Türkiyə ərazilərinin Ermənistanın tərkibində qeyd olunması göstərilir. Onun sözlərinə görə, ümumilikdə Türkiyənin 20 rayonu Ermənistanın tərkibində göstərilib.

S.Ünsal əlavə edib ki, Türkiyənin bütün QHT-ləri Ermənistanın bu hərəkətinə qarşı çıxış etməlidir.

# Azyaşlı qardaşlara işgəncə verilməsi ilə bağlı araşdırmalar Baş prokurorun xüsusi nəzarətinə götürüldü

**Baş prokuror Zakir Qaralov Bakının Sabunçu rayonunda azyaşlıların valideynləri tərəfindən işgəncələrə məruz qalması barədə yayılan məlumatları nəzarətə götürüb.**



"Trend"in məlumatına görə, bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov öz "Facebook" səhifəsində məlumat verib: "Bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə paytaxtın Sabunçu rayonu ərazisində azyaşlılar - Qulu və Hüseyn adlı qardaşların ata və ögey anaları tərəfindən işgəncələrə məruz qalmaları ilə əlaqədar yayılmış informasiyalar üzrə araşdırmanın aidiyyəti dövlət qurumlarının nümayəndələri cəlb edilməklə aparılması Bakı Şəhər Prokurorluğuna tapşırılıb.

Baş vermiş hadisə ilə bağlı araşdırmalar Baş prokuror tərəfindən xüsusi nəzarətə götürülüb".

# Tramp Ümumdünya Ticarət Təşkilatını ləğv edir...

**"Ümumdünya Ticarət Təşkilatı (ÜTT) bir neçə gündən sonra funksiyasını dayandıracaq. Çünki bunu Tramp istəyir". Baki-xeber.com xəbər verir ki, bu barədə Almaniyanın "Der Spiegel" qəzeti yazır.**



Qəzet ABŞ prezidenti Donald Trampın ÜTT-nin fəaliyyətini iflic etmək üçün hər şeyi etdiyi və bir möcüzə baş verməsə bu həftə Trampın hədəfinə çatacağını bildirir.

ABŞ-ın iki ildir ÜTT-nin apellyasiya orqanının yeni üzvlərinin seçilmə prosesinə mane olduğu, orqandakı 7 kreslodan sadəcə üçünün dolu olduğu, mövcud üç üzvün də bu həftə səlahiyyət müddətinin bitəcəyi qeyd edilir: "Bununla apellyasiya orqanı və onunla birlikdə dünya ticarətinin əsas idarəetmə orqanının sonu çatacaq".

Bu həftə apellyasiya orqanının fəaliyyətinə son qoyulmaqla yanaşı, bütün ÜST sisteminin də çökəcəyi və dünya ticarət qaydalarının da rəsmən ləğv ediləcəyi vurğulanır.

Trampın ÜTT olmadan ölkəsi üçün daha sərfəli şərtlər əldə etməyi düşündüyünü söyləyən müəllif apellyasiya orqanı çökdükdən sonra dünya ticarətində "güclülərin hüququ" prinsipinin işə düşəcəyi, buna görə Avropa Birliyinin də hazırlıqlara başladığını yazır.

# Mikayıl Cabbarov erməni nazir müavininə Heydər Əliyev Mərkəzində İrəvanın tarixi ilə bağlı nələri göstərdi...

**Məlum olduğu kimi, ötən həftə Bakıda keçirilən "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş"in imzalanmasının 20 illiyinə həsr olunmuş beynəlxalq konfrans və TRASEKA Hökumətlərarası Komissiyasının XIV iclasında Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Ermənistan nümayəndəsinin səsləndirdiyi təxribat xarakterli fikrə çox tutarlı və məntiqli cavab verib.**

*"Nazir bütün bunları çox etik çərçivədə bəyan etdi"*

***Məhərrəm Zülfüqarlı:** "Məlum konfransda səslənən fikirlərlə bir daha dünyaya sübut etdik ki, Qafqazda, ümumiyyətlə, erməni yaşamayıb"*



Nazir Mikayıl Cabbarov iclasın mədəni proqramının təşkilinə görə erməni nümayəndənin reaksiyasını yaxşı anladığını vurğulayıb. O deyib ki, bilirəm, anlamaq və qəbul etmək onlar üçün asan deyil. Biz destruktiv deyil, konstruktiv yanaşmadan istifadə etməliyik. Destruktiv yanaşmanın nəticələri özünü, ilk növbədə, qonşu ölkədə göstərir. Onlar nəqliyyat sahəsində bir sıra beynəlxalq layihələrdən kənar qalıblar. Burada TRASEKA-nın mövcudluğu nümayiş olundu: "Tədbirin proqramı hazırlanan zaman Çoxtərəfli Sazişi imzalayan insanların xatirəsinə hörmət diqqətdən kənar qala bilməzdi. Faşizm üzərində qələbənin 75 illiyi yaxınlaşır və siz öz paytaxtınızda kimə abidə qoymusunuz? Mən sizi Heydər Əliyev Mərkəzinə dəvət edirəm, gəlin yaşadığınız şəhərin, İrəvan xanlığının tarixi ilə bağlı məlumat əldə edin. TRASEKA-nın karvanı isə öz yoluna davam edəcək".

M.Cabbarovun İrəvan xanlığının tarixi ilə bağlı məqama toxunması xüsusilə diqqəti cəlb edir. O mənada ki, İrəvan xanlığı tarixi Azərbaycan ərazisi olub. Ermənilər nəinki Dağlıq Qarabağa, müasir Ermənistan ərazisinə də sonradan gəliblər. Azərbaycanlıları sıxışdıraraq sözügedən ərazilərdə məskunlaşıblar.

Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, M.Cabbarov tutarlı arqumentlərlə Ermənistan rəsmisini susdurdu: "M.Cabbarovun fikirlərini mən özüm də dinlədim. O çox təmkinlə məsələləri sadaladı. Bütün dünya da bilir ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan ərazisi olub. Bütün bunları çox etik çərçivədə bəyan etdi. Çünki erməni rəsmisi düşmən də olsa, tədbirə evsahibliyini Azərbaycan edirdi. Bundan başqa, nazir Ermənistanda faşistlərlə əməkdaşlıq etmiş Njdenin heykəlinin qoyulmasını qarşı tərəfin diqqətinə çatdırdı. Bu, Ermənistan hakimiyyətinin hansı mənsəbə qulluq etdiyini göstərir. Bu artıq onu göstərir ki, Azərbaycan başqa ölkələrdə, beynəlxalq tədbirlərdə öz fikrini dediyi kimi, burada da ermənilərə həqiqəti deyir. Beynəlxalq ictimaiyyət də bundan bir nəticə çıxarmalıdır. Yəni nəinki Dağlıq Qarabağ, hətta indiki Ermənistan ərazisi də Azərbaycan ərazisidir. Bunu tarixi faktlar da, ekspertlər də sübut edirlər. Ona görə də Ermənistan rəhbərliyi artıq kiminsə kölgəsində yatmaqla, kiməsə arxalanmaqla bu separatçı hərəkətləri Dağlıq Qarabağda davam etdirməməlidir.

**Azərbaycan dövləti və ordusu ilə hesablaşmalıdır. Məlum konfransda səslənən fikirlərlə bir daha dünyaya sübut etdik ki, Qafqazda, ümumiyyətlə, erməni sonradan gəlib və bizim ərazilərin hesabına dövlət yaradıblar".**

***Vidadi ORDAHALLI***

# YAP-ın öz namizədlər siyahısını açıqlamasını gözləyən iddiaçılar - məqsəd nədir...

**Artıq növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı bütün prosedurlar başa çatıb. Seçkinin keçiriləcəyi vaxt elan olunandan sonra görünən budur ki, çoxlu sayda şəxs deputat olmaq istədiyini bəyan edir. Həddən çox iddiaçının olması cəmiyyəti də dərindən düşündürür.**




***Rauf Zeyni:** "Buna görə biz kimisə qınaya da bilmərik"*

Düzdür, müşahidələr göstərir ki, həmin adamların sırasında niyyəti ciddi olmayanlar da çoxdur. Sadəcə, axara düşüb "mən də varam" demək istəyirlər.

Ancaq cəmiyyətdə kifayət qədər ciddi reputasiyaya malik olan şəxsdən də çoxlu sayda adam parlament seçkilərində iştirak edəcəyini bəyan edib. Maraqlıdır ki, onların çoxuna "namizədliyinizi hansı dairədən elan edəcəksiniz" sualı ilə müraciət edəndə dəqiq cavab vermirlər. Böyük əksəriyyəti də bunu YAP-ın namizədlərini elan etməməsi ilə izah edir. Namizədlərin YAP-la bağlı ortaya qoyduqları gözləntilər nə ilə əlaqəli ola bilər?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezidentin verdiyi fərmandan sonra seçkilərin vaxtı dəqiq müəyyənləşib və bu, cəmiyyətdə müəyyən canlanmaya səbəb olub: "Özündə güc, qüvvət, bacarıq, mənəvi haqq hiss edən hər bir Azərbaycan vətəndaşı öz namizədliyini verərək seçkilərdə öz qüvvəsini sınaya bilər. Bunun üçün ölkədə bütün lazımi şərait yaradılıb. Kim hansı partiyanın namizədini gözləyirsə, onlar da bir taktika ilə hərəkət etmiş olurlar. YAP-ın namizədliyini gözləmək namizədin öz qüvvəsini götür-qoy etmək baxımından əhəmiyyətlidir. Çünki hakim partiyanın mövqeyinin güclü olduğu məlumdur. Həmin partiyanın irəli sürəcəyi namizədlərin kimliyindən də çox şey asılı olacaq. Yəni YAP-ın da bütün namizədləri seçkinin favoriti kimi qəbul olunmayacaq. Buna görə biz kimisə qınaya da bilmərik. Ölkəmizdə parlament seçkiləri çox ciddi bir hadisədir və xüsusilə də budəfəki seçkilərə böyük maraq var. Düşünürəm ki, yeni parlamentin formalaşmasında maraqlı olan bütün qüvvələr öz sözünü deyəcək. Əsas məsələ budur ki, millətimiz üçün, islahatlarımız üçün xeyirli-uğurlu olsun. Cənab İlham Əliyevin bütün istiqamətlər üzrə apardığı inqilabi islahatlar parlamentdən də yan keçmədi. Seçkilərdə namizədliyini irəli sürən hər bir namizədə uğurlar arzulayıram. İnanıram ki, vətəndaş cəmiyyətinin də aparıcı nümayəndələri bu prosesə öz layiqli töhfələrini verəcəklər".

*"YAP-ın namizədliyini gözləmək namizədin öz qüvvəsini götür-qoy etmək baxımından əhəmiyyətlidir"*

***Məhəmmədəli QƏRİBLİ***

**Daim ermənipərəst mövqeyi ilə seçilən Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulin təmsil olunduğu ölkənin mətbuatında Njde məsələsinə toxunub. Hətta Armavir şəhərində faşist "qəhrəmanın" xatirə löhvəsinin üzərinə boya tökən rusiyalı deputat Vinoqradovu da etdiyi hərəkətə görə sərt tənqid edib.**



# Rus deputat Zatulin Zaxarovanın üstünə yeridi - səbəb Qarabağ münaqişəsi və faşist Njde məsələsidir...

***Yeganə Hacıyeva:** "Zatulinin Qaregin Njde mövzusuna toxunması, birmənalı olaraq, Rusiya hakimiyyətində təmsil olunan erməni dairələrinin bu mövzu haqqında rəyidir"*

Zatlin bütün bu təbliğatı Azərbaycanın provokasiyası adlandırır. Maraqlıdır ki, o, bu məsələdə Rusiya XİN-in nümayəndəsi Mariya Zaxaravonın da üzərinə hücum edir və bildirir ki, 2016-cı ildən başlayaraq, Njdeyə qarşı təbliğata Rusiya tərəfdən ilk dəstək verən məhz o olub. Deputat Zaxarovanı Bakının sifarişlərini icra etməkdə də günahlandırıb. Zatulin ermənilərin məğlubiyyətə düçar olduğu Njde məsələsində Rusiya rəsmilərinə qarşı kampaniya aparmaqla nəyə nail olmaq istəyir?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, keçən ay Rusiyanın Krasnodar vilayətinin Armavir şəhərində erməni faşisti Qaregin Njdeyə qoyulan xatirə lövhəsi elə həmin şəhər dumasının deputatı Aleksey Vinoqradov tərəfindən boya tökülməklə təhqir olundu: "Bu addım, əslində, deputatın nasizmin qəhrəmanlaşdırılması, neonasizmin yayılması və ən əsası, II Dünya Müharibəsi zamanı III Reyxin cəlladı qismində tanınan bir şəxsə faşizmlə mübarizənin əsas avanqardı sayılan Rusiya dövlətinin vilayətlərindən birində abidə qoyulmasına etiraz aktı idi.

Ardınca isə Ermənistanda bir neofaşist gəncin erməni dövlətinin qurulmasında müstəsna xidməti olan Qriboyedovun İrəvandakı abidəsi təhqir olundu.

Bunun üçün diqqətinizi prosesin ardıcıllığına çəkmək istəyərdim. İlkin olaraq Njde mövzusunun süni olaraq Rusiya XİN sözçüsü Zaxarovadan qaynaqlanması və onun bu prosesdə təkanverici bir persona olması təbliğatı yayıldı. Təbliğatı daha çox Ermənistanın Moskvadakı səfirliyinə bağlı şəxslər, Rusiyadakı erməni əsilli ictimai-siyasi fəallar və media rəhbərləri sərgilədi və bunu erməni-rus əlaqələrinin ruhuna uyğun gəlməyən vandalist akt və millətlərarası gərginliyə gətirəcək hərəkət kimi qələmə verməyə çalışdılar. Əslində, bu dairələrin prosesi Zaxarovaya bağlamaq təbliğatı uğursuz bir cəhd idi, çünki Zaxarova, sadəcə, Rusiya Xarici İşlər Nazirliyinin "Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin yayılmasına və irqçiliyin müasir formalarının, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onunla bağlı digər dözümsüzlüklərin artmasına kömək edən digər praktikaların yayılması ilə bağlı vəziyyət haqqında" hesabatın məzmununu səsləndirib".

Politoloqun sözlərinə görə, Rusiya XİN bu hesabatı isə bəzi dünya ölkələrində nasizmin, neonasizmin təzahürlərinin artmasına və İkinci Dünya Müharibəsinin tarixini yenidən yazmağa cəhd göstərilməsinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə tərtib olunub: "Hesabatda isə digər ölkələrdə olduğu kimi, Ermənistandakı vəziyyət də təhlil olunub və orada "Ermənistanın keçmiş iqtidar Respublikaçılar Partiyasının üçüncü Reyx ilə əlaqəsi haqqında məlumatlar mövcud olan Q.Njdenin xatirəsinin birmənalı olmayaraq milliyyətçi siyasi qəhrəman kimi əbədiləşdirilməsi üçün tarixin yenidən yazılması üçün addımlar atdığı" qeyd edilir, həmçinin, cəmiyyətdə neomillətçi "Sosna Tsrer" təşkilatının fəaliyyətindən ciddi narahatlıq keçirdiyini bildirirdi.

Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin Qaregin Njde mövzusuna toxunması, birmənali olaraq, Rusiya hakimiyyətində təmsil olunan erməni dairələrinin bu mövzu haqqında rəyidir. Heç kimə sirr deyil ki K.Zatulinin Rusiyada hakimiyyət və mediada erməni dairələrinə yaxın və onlardan maliyyələşən deputat kimi bir reputasiyası var.

Bu rəy isə təxminən Rusiya XİN-də erməni əsilli nazirə qarşı daxili qruplararası mübarizənin təzahürü kimi qələməvermə cəhdləri ilə müşayiət olunur. Bir neçə gündür Rusiyada ermənilərə bağlı media resurslarda biz bu təbliğatı izləməkdəyik.

Bunun bir neçə səbəbi var, zənnimcə, ən əsas səbəbi Ermənistanın və Rusiya siyasi elitasındakı ermənilərin bir sıra saxta erməni mifinin dağılması təhlükəsi ilə üz-üzə qalmasıdır. Belə ki, Qriboyedovun İrəvandakı abidəsinin təhqir olunmasından sonra Rusiya mediası 1828-ci il "Türkmənçay" sazişi, ermənilərin indiki Ermənistan ərazisinə köçürülməsi, Yerevanın İrəvan şəhəri olması, ermənilərin ora köçürülməsi haqqında açıq yazmağa başladılar. Bu isə ermənilərin bütün dünyada apardıqları saxta "bir neçə minillik tarixi olan erməni dövləti" və ya "İrəvanın erməni şəhəri kimi 3 minillik tarixi var" təbliğatını darmadağın edir. Biz daha öncə Rusiyada bu mövzuların bu qədər açıq yazılmasını xatırlamırıq.

Qriboyedovun abidəsinin təhqir olunması hadisəsinin ətrafında baş verənlərin təhlili onu göstərir ki, Rusiya erməniləri bu mövzuda dirənişin onlar üçün hansı səviyyədə ziyanlı olmasını qənaətindədirlər və bu prosesi daxili qrupların adına bağlamaqla yekunlaşması üçün səfərbər olublar".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Türkiyə parlamentinin HDP-ni təmsil edən erməni əsilli deputatı Karo Paylan Qars Bələdiyyə Məclisi və "Anadolu Kültür"ün təşkil etdiyi "Daş Şəhir - Ani "sərgisində iştirak edib. Erməni mətbuatının yazdığına görə, K.Paylan qədim Ani şəhərinin xarabalıqlarını gəzib.**



# AKP Türkiyədə deputat erməni Paylanın dövlətin suverenliyi əleyhinə fəaliyyətlərinə nə qədər dözəcək...

***Məhəmməd Əsədullazadə:** "Erməni əsilli deputat Karo Paylanın belə avantürası sıradan bir hadisə deyil"*

Bununla belə, Ani şəhərinə səfəri ilə əlaqədar olaraq Paylan "Facebook" sosial şəbəkəsindəki səhifəsində qeydini Ani fonunda fotoşəkillərlə paylaşıb: "Ani şəhərini ziyarət etdik. Ani, bütün səylərə baxmayaraq, kədərlidir... Şəhərin yaxınlığından axan bir çay Türkiyə ilə Ermənistan arasındakı sərhədə çevrildi. 26 ildir ki, sərhəd bağlanıb. Bu dağılan körpünü təmir etdiyimiz gün Ani şəhəri üçün böyük bir bayram olacaq".

K.Paylan, eyni zamanda, Qars şəhər meriyasında olub və HDP-nin icma rəhbərləri ilə görüşüb.

Ermənilər iddia edirlər ki, guya Ani şəhəri vaxtilə qədim Ermənistan dövlətinin paytaxtı olub. Hansı ki, bu, ermənilərin uydurmasıdır. K.Paylan da məlum mövqeyi ilə, bir növ, onların bu uydurmasına dəstək verib. Onun bu davranışı vətəndaşı olduğu Türkiyənin ərazi bütövlüyünə yönəlik bir addımdır. Zatən, Paylan dəfələrlə Türkiyəyə yönəlik bənzər addımlar atıb. Ən qəribəsi odur ki, Türkiyədəki QHT-lər, siyasilər Paylanın bu avantürasına çox dözümlü yanaşırlar. Hansı ki, buna görə o, mandatdan məhrum edilməli və bununla bağlı təşəbbüs qaldırılmalıdır. Türkiyə cəmiyyətində onun bu təxribatçı çıxışlarına sərt münasibət göstərilməlidir. Ən azından, iqtidarda olan AKP bununla bağlı mövqe ortaya qoymalıdır. Çox təəssüflər olsun ki, bunların heç biri baş vermir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Paylanın bu təxribatçı fikirlərinə Türkiyə ictimaiyyətinin belə biganə yanaşması təəssüf doğurur: "Türkiyədə ermənilərin fəaliyyəti bir çox halda bu ölkənin özünün milli təhlükəsizliyinə təhdid olub. Bu ölkədə də erməni lobbisi var. Erməni lobbisi Türkiyə dəyərlərini, ərazi bütövlüyünü hədəfə çıxarır. Ermənistan açıq şəkildə Türkiyənin şərqinə yönəlik ərazi iddiaları ilə çıxış edir.

*"Təəssüf ki, Türkiyədə QHT və siyasilər bu məsələlərə reaksiya vermir və bu da ermənilərin bir qədər də azğınlaşmasına gətirib çıxarır"*

O baxımdan erməni əsilli deputat K.Paylanın belə avantürası sıradan bir hadisə deyil. Türkiyədə bu şəxsə yönəlik cinayət işinin qaldırılması labüddür. Paylan mandatdan məhrum edilməlidir. Çünki bu, digərlərinə də görk olmalıdır. Təəssüf ki, Türkiyədə QHT və siyasilər bu məsələlərə reaksiya vermir və bu da ermənilərin bir qədər də azğınlaşmasına gətirib çıxarır. Hesab edirəm ki, bu istiqamətdə türklərin fəaliyyətsizliyi ermənilərin növbəti təxribatlara əl atmasına gətirib çıxaracaq. 100 ildir qondarma "soyqırım" iddialarından əl çəkməyən ermənilərin Türkiyəyə yönəlik ərazi iddiası aktual olaraq qalır. Bu məsələni Türkiyə vətəndaşları olan ermənilər dilə gətirirsə, deməK, mütləq onlar Türkiyənin içində problemlər yaratmağa cəhd edəcəklər. Türkiyənin vətəndaş cəmiyyəti daim ermənilərin bu iddiaları qarşısında nədənsə çox zəifdir. Ona görə də bu açıq təhdidə qarşı mütləq cavab verilməlidir".

*Viddi ORDAHALLI*

# Erməni ideoloqları həmsədrlərin Bratislava görüşünü çox kiçik məsələyə bağladılar - guya Azərbaycanın aşağılanması xatirinə...

**Ermənistan mediası Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Bratislavada baş tutan görüşünün mahiyyətini tamamilə yanlış istiqamətə yönəldir. Onlar iddia edirlər ki, guya həmin görüşdə Azərbaycanın başlıca məqsədi erməni girovluğunda saxlanan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması olub.**



***Qabil Hüseynli:** "...danışıqlar daha əhatəli mövzular ətrafında olub"*

Qeyd edilir ki, guya Azərbaycan bu işdə hətta Rusiyanın Xarici İşlər naziri Lavrovun da vasitəçilik xidmətlərindən istifadə etməyə çalışıb. Bildirilir ki, Ermənistan girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi təklifini qəbul etməyib. Məlumdur ki, Bratislava görüşünün mahiyyəti tamamilə başqa olub. Gündəlikdə duran məsələlər Dağlıq Qarabağ və ətraf rayonların taleyi ilə bağlı olub. Belə olan təqdirdə, Ermənistan tərəfinin ictimai rəydə həmin görüşün mahiyyəti ilə bağlı etdiyi manipulyasiya nəyə görədir?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, Ermənistanın növbəti diplomatik həyasızlığıdır: "Belə addımlara həm rus, həm də Avropa dillərində "tsinizm" deyirlər. Abırsızlıqda bundan o tərəfi yoxdur. Onların son addımının əsl adı budur. Ermənilər öz xislətlərinə xas olan oyunbazlıqlarını davam etdirirlər. Mən xatırlayıram ki, bir dəfə tərəflər arasında gedən danışıqlarda Ermənistanın sabiq prezidenti Robert Köçəryan ayaqyoluna getmək adı ilə danışıqları yarımçıq qoyub qaçmışdı. Həmin hadisə Moskvada baş vermişdi. Deməli, bu nəticəyə gəlirik ki, onlar danışıqlardan vaxtı uzatmaq üçün istifadə edirlər. Danışıqların əsl predmeti qalıb bir kənarda, bunlar tamamilə başqa mövzunu qabardırlar. Bu o demək deyil ki, Azərbaycan tərəfi girovların dəyişdirilməsində maraqlı deyil. Həmin məsələ də bizim üçün prioritetdir. Ancaq Bratislavadakı danışıqlar daha əhatəli mövzular ətrafında olub. Həmin görüş ATƏT-in Minsk Qrupunun təşəbbüsü ilə baş verib. Girovların dəyişdirilməsi ilə həmin təsisat məşğul olmur. Görüşü təşkil edən qurumun başlıca vəzifəsi Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdən ibarətdir. Bütün danışıqlar prosesi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində aparılmalıdır. Düzdür, Rusiya rəsmiləri arada bir hansısa kompromislərə işarə edirlər. Ancaq torpağı işğal edilən tərəf daha nəyi kompromisə gedə bilər ki? Bizim Xarici İşlər naziri də danışıqlardan əvvəl bildirmişdi ki, mövzular ətrafında predmetli müzakirələr olacaq. Belə razılşama olub ki, Məmmədyarov məlum açıqlamanı verib. Yalnız girovlarla bağlı məsələnin müzakirəsi olacaqdısa, təbii ki, Məmmədyarov bənzər açıqlamanı verməzdi. Danışıqların 3 saat gərgin atmosferdə keçməsi bir daha təsdiq edir ki, orada müzakirələr Dağlıq Qarabağ konflikti ətrafında olub. Erməni tərəfi yenə danışıqları pozmaq üçün "Dağlıq Qarabağ xalqı"nın da tərəf kimi müzakirələrdə iştirakını ortaya atıb. Bununla da ortada heç bir nəticə hasil olmayıb. Erməni tərəfinin bu cür davranışları sübut edir ki, artıq onlarla başqa dildə danışmağın zamanı yetişib".

*"Ermənilər öz xislətlərinə xas olan oyunbazlıqlarını davam etdirirlər"*

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ Senatı erməni lobbisinin saxta genosid qətnaməsinin qəbuluna inamla müqavimət göstərməkdədir...

**ABŞ Senatı üçüncü qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə layihəsini müzakirə etməkdən imtina edib. Belə ki, Birləşmiş Ştatlar Senatının qaydalarına əsasən, qanunvericilər əvvəlcə layihənin gündəliyə salınması üçün səs verməli, yalnız bundan sonra sənədin müzakirəsinə və səsverməsinə keçməlidirlər.**



***Əli Orucov:** "Bədnam qətnamənin Senatda qəbul olunmasının əngəllənməsi əsasən siyasi səbəblərlə bağlıdır"*

Qətnamə layihəsinin müəllifləri ermənipərəst senatorlar Robert Menendez və Ted Kruzdur. Menendez ABŞ Konqresinin Nümayəndələr Palatasının bu yaxınlarda qondarma "soyqırımla" bağlı qətnamə qəbul etdiyini xatırladaraq, Senatdakı həmkarlarını həmin sənədi gündəliyə daxil etməyə çağırıb. Şimali Dakota ştatını təmsil edən respublikaçı senator Kevin Kramer qətnaməyə qarşı çıxıb. Keçmiş konqresmen, 2018-ci ildən bəri Senatın üzvü olan Kramer həsab edir ki, bu gün qətnamə qəbul etmək üçün əlverişli vaxt deyil: "Mən bu qətnamə ilə razıyam və əminəm ki, digər həmkarlarım da mənim kimi düşünür. Biz onu gündəliyə daxil edə bilərik, amma sual bunu nə vaxt etməli olduğumuzla bağlıdır. Mənə elə gəlir ki, indi bunun vaxtı deyil". Beləliklə, qətnamə layihəsinin Senatın gündəliyinə salınması Kramer tərəfindən bloklanıb. Diqqəti çəkən məqam odur ki, ABŞ Senatının qaydalarına görə, hər bir senator istənilən məsələnin müzakirəsini bloklaya bilər. Bu baxımdan güman etmək olarmı ki, bundan sonra da Konqresdəki Nümayəndələr Palatasının saxta genosidlə bağlı qəbul etdiyi bədnam qətnamənin rəsmi qanuni qüvvəyə minməsinin qarşısını almaq mümkün olacaq? Yəni hər dəfə senatorlardan biri bunu blok etməklə qətnamə qüvvəyə minməyəcək?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov prinsipcə bunu istisna etmədi: "Əvvəla, ABŞ senatorunun məlum addımı müsbət haldır və bu bizi sevindirir. Məsələ ondadır ki, ABŞ qanunvericiliyinə əsasən, Senatda hər hansı qanun layihəsinin qəbulu üçün 100 senatordan üçdə ikisinin səsi lazımdır. Hər hansı senatorun qanun layihəsinə və ya qətnaməyə veto qoymaq hüququ var. Bu baxımdan senatorların qətnaməni bloklamaq hüququ var. Bu minvalla bədnam qətnamənin ümumi səsverməyə çıxarılmasına imkan verilmir. Bu da, prinsipcə, Türkiyənin maraqlarına uyğundur. Yəni bədnam qətnamənin Senatda qəbul olunmasının əngəllənməsi əsasən siyasi səbəblərlə bağlıdır. Vaşinqton Türkiyə ilə olan bütün körpüləri yandırmaq istəmir. Son illər iki ölkə arasında bir sıra məsələlərlə bağlı ciddi fikir ayrılıqlarına və münasibətlərin gərginləşməsinə baxmayaraq, Vaşinqton Türkiyəni itirmək istəmir. Bu səbəbdən müxtəlif siyasi alətlər işə salınaraq, Nümayəndələr Palatası tərəfindən qəbul edilən qondarma "erməni soyqırımı" qətnaməsinin rəsmiləşməsi əngəllənir. Nəzərə almaq lazımdır ki, Türkiyə prezidenti Ərdoğanın ötən ay ABŞ səfəri müəyyən mənada uğurlu alındı. Tərəflər bir sıra məsələlərdə ortaq məxrəcə gəldilər. Nəticədə iki ölkə arasında əvvəl mövcud olan gərginlik xeyli azalıb. O baxımdan düşünmürəm ki, ABŞ hakimiyyəti qondarma "soyqırım"ın Senat tərəfindən qəbul olunmasına imkan versin. Nəzərə almaq lazımdır ki, ABŞ dövlət maraqları Vaşinqton üçün daha önəmlidir, nəinki qondarma "soyqırım" layihəsi".

*"Son illər iki ölkə arasında bir sıra məsələlərlə bağlı ciddi fikir ayrılıqlarına və münasibətlərin gərginləşməsinə baxmayaraq, Vaşinqton Türkiyəni itirmək istəmir"*

***Vidadi ORDAHALLI***

**Müsavat Partiyasının Ali Məclisi dekabrın 7-də gələn il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak etmək haqqında qərar qəbul edib. Partiyanın başqanı Arif Hacılı bildirib ki, uzun müzakirələrdən sonra belə qərar qəbul edilib:**

# Seçki radikal düşərgəni yenə parçaladı - Müsavat seçkiyə getdi, Kərimovçu Milli Şura təkləndi...

"Müzakirələrin nəticəsində indiki ictimai-siyasi şəraitdə seçkilərdə iştirakın Azərbaycan cəmiyyətinin maraqlarına daha uyğun olduğu qənaətinə gəlindi və mütləq əksəriyyətin səs çoxluğu ilə iştirak etmək barədə qərar qəbul olundu".

Müsavat Partiyasının seçkilərə qatılmaq qərarı müxalifət düşərgəsində situasiyanı bir qədər də mürəkkəbləşdirib. Boykot əhvalında olan Milli Şura ilə qarşılıqlı ittihamlara yenidən start verib. MŞ prosesin tamamilə hakimiyyətin nəzarətində olduğunu, seçkidə iştirakın iqtidarın və onun loyal baxdığı müxalifət qüvvələrinin işini asanlaşdıracağını düşünür. Ona görə əlindəki media resurslarından istifadə etməklə onları cəmiyyətin qınaq hədəfinə gətirməyə, nüfuzdan salmağa çalışır. Hakimiyyət müxalifətin əhəmiyyətli hissəsinin seçkilərə qatılmasında maraqlıdır. Bu günlərdə YAP-ın icra katibi Əli Əhmədov bildirmişdi ki, cəmiyyətin və partiyaların əksəriyyətinin seçki əhvalruhiyyəsində olduğu bir zamanda tamam fərqli yanaşma və baxış sərgiləyən partiyalar da var: "Anormal olan da məhz budur. Partiya adını daşıyan bəzi

## Rəfail Becanov: "Sosial şəbəkələrdə öz trolları vasitəsilə həmin partiyalara qarşı şantaj kampaniyasına start veriblər"

qruplar seçkiyə getmək və ya getməmək müzakirələri aparırlar. Söhbət radikallardan gedir".

Qeyd edək ki, müxalifəti təmsil edən iki tanınmış partiya - REAL və Müsavatın seçkidə iştirakını açıq bəyan etməsi, faktiki olaraq, Əli Kərimlinin nəzarətində olan Milli Şuranı təklənmiş vəziyyətə salıb. Seçkiqabağı situasiyada bu vəziyyətin davamını necə proqnozlaşdırmaq olar?

Əli Kərimlinin nəzarətində olmayan AXCP-nin funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Milli Şura bütün siyasi proseslərlə bağlı təklənmiş vəziyyətdədir: "Hətta seçkilər mövzusu gündəmdə olmayanda da bu mövzu belə idi. Onların təyin etdiyi aksiyalar, keçirdikləri digər tədbirlər heç bir müxalif partiya tərəfindən dəstəklənmirdi. Növbədənkənar parlament seçkiləri elan olunandan sonra da bu proses davamlı xarakter aldı. Verdikləri bəyanatdan sonra məlum oldu ki, seçkidə iştirakla bağlı bir qarantiya əldə etmək istəyirlər. Əslində, onlar bununla bəri başdan parlamentdə təmsil olunub-olunmayacaqları ilə bağlı bir zəmanəti almaq istəyirdilər. Təbii ki, onlara həmin zəmanəti heç kim vermədi. Çünki seçki prosesi ilə bağlı məsələdə belə zəmanəti kimsə əvvəlcədən verə bilməzdi. İnsanlar kimə səs verəcəksə, həmin adamlar da parlamentdə təmsil olunacaq. Bundan sonra ənənəvi taktikalarına əl atıb boykot taktikasını gündəmə gətirdilər. Ölkədə olan tanınmış müxalifət partiyalarının böyük əksəriyyəti seçkidə iştirakla bağlı qərar verib. Bilirsiniz ki, onlar özlərini AXCP elan etsələr də, əsl AXCP-ni biz təmsil edirik və seçkidə iştirakla bağlı qərarımızı vermişik. "Ümid", REAL, Müsavat kimi partiyalar da seçkidə iştirak edəcəklər. Təbii ki, hakimiyyət seçkilərin daha rəqabətli şəraitdə keçirilməsində maraqlıdır. Bütün siyasi qüvvələrin seçkidə iştirakı ilə bağlı hətta onlar tərəfdən çağırış da edilib. Amma Milli Şura və Əli Kərimli başa düşür ki, onların ciddi sosial baza problemi var.

### "Əli Kərimli ənənəvi roluna sadiqlik göstərir"

Əksər seçicilər radikal xətti müdafiə etmir, buna görə də seçkiyə gedən müxalif partiyaları hədəfə alıblar. Sosial şəbəkələrdə öz trolları vasitəsilə həmin partiyalara qarşı şantaj kampaniyasına start veriblər. Burada qeyri-adi də nəsə görmürəm. Əli Kərimli ənənəvi roluna sadiqlik göstərir. Ölkədə xaosun olmasını ciddi qüvvələr istəmirlər. Biz təkamül formasında dəyişikliklərin baş tutmasına çalışırıq. Buna görə də təklənmiş vəziyyətdə də qalacaqlar".

*Məhəmmədəli QƏRİBLİ*

**Sabiq Müsavat başqanı İsa Qəmbərlə "Milli Şura"nın üzvü Gültəkin Hacıbəyli arasında "müavin" qalmaqalı yenidən alovlanıb. "Trend"in məlumatına görə, Gültəkin Hacıbəyli özünün "Facebook" səhifəsində yazıb:**

# Gültəkin Hacıbəylinin İsa Qəmbərlə illər öncəki ikitərəfli görüş söhbətini açıqlaması aləmi qatdı



"Hörmətli İsa Qəmbər bildirib ki, gərək mən onunla ikilikdə aramızda olan söhbəti ictimailəşdirməyəydim. Söhbət onun mənə 2013-cü ilin payızında Müsavat partiyasının Beynəlxalq məsələlər üzrə başqan müavini vəzifəsini təklif etməsindən gedir. İmtina etmişəm və hesab edirəm ki, düz etmişəm, lakin bu təklifdən imtina etməyim nə məni böyütməyib, nə İsa bəyi kiçiltməyib. Siyasətdə belə təkliflər də, imtinalar da çox olur və bu normal haldır. İkincisi, hər şeyə rəğmən İsa bəyin bu faktı etiraf etməsi onun səviyyəsinin göstəricisidir, çünki, təəssüf ki, Azərbaycan siyasətində heç də hamı bu keyfiyyətilə fərqlənmir, əksinə, vaxtilə məni öz təşkilatlarına dəvət edən bəziləri indi bunun əksini iddia edərək üzümə dururlar ki, guya mən hətta heç bir strukturu olmayan, ikinci kurs tələbələrinin belə qoşulmaqdan imtina etdiyi və 5-6 nəfər üzvü olan təşkilatda "sobesedovaniyadan" keçməmişəm. Heyf ki, çox şeyləri demək olmur... İsa bəy onda da haqlıdır ki, iki nəfər arasında olan söhbət ictimailəşməməlidir və mən həyatım boyu belə davranmışam. Düzdür, İsa bəyin təklifi şəxsi söhbət deyildi, ən böyük müxalifət partiyalarından birinin idarəetməsilə bağlı idi, amma mən yenə də bu söhbəti açmadım, ən doğma bildiyim insanlardan, məsələn, Cəmil müəllimdən başqa illərlə heç kimlə bölüşmədim. Hörmətli İsa bəy, mən bunu istəmirdim və etməzdim də, məni bu söhbəti ictimailəşdirməyə müsavatçılar məcbur etdi. Hər addımda məni keçmişimlə vuran, mənə qarşı ardıcıl kampaniyalar aparan, on ildir etdiyim fədakarlıqları, verdiyim qurbanları görməzdən gələn və bütün həyatı boyu etdiyim imtinaların bir faizini etməyəcək bəzi partiyadaşlarınız. Və mən məcburiyyət qarşısında, sadəcə, onların yadına salmalı oldum ki, mənim Milli Məclisin deputatı olduğum 2000-2010-cu illər təqvimdə başqan müavini vəzifəsi üçün təklif aldığım, həm də müsavatçıların yekdil səsilə Milli Şuranın komitə sədri seçildiyim 2013-cü ildən əvvəl gəlir...".

Ardınca G.Hacıbəyli daha da aqressiv şərh yazıb: "Bəzi müsavatçılar kütləvi şəkildə bu statusun altına mənim İlham Əliyevin təbliğat mitinqimdəki çıxışımı yükləyirlər. Onlara bu statusun mahiyyəti hələ də çatmayıb. Yaxşı, mən pis idimsə, niyə məni partiyanızın rəhbərliyinə dəvət edirdiniz, MŞ-ya komitə sədri seçirdiniz?! Bunu düşünmək əvəzinə zombi kimi bir ucdan yükləyirlər"

İsa Qəmbər isə elə bu statusun altından şərh yazaraq bildirib ki, Azərbaycan ictimai-siyasi arenasında ən çox tənqid olunan - haqlı ya haqsız, səmimi ya qərəzli- şəxslərdən biri Gültəkin Hacıbəylidir: "İradlar demokratik düşərgədən gələndə Gültəkin xanımın cavab üçün istifadə etdiyi əsas arqumentlərdən biri də təxminən belə olur: "Müsavat başqanı İsa Qəmbər mənə təkidlə partiyanın beynəlxalq siyasət üzrə başqan müavini postunu təklif edib 2013-cü ilin payızında, mən imtina etmişəm." Gültəkin xanım məram və niyyətlərin dəqiqləşdirilməsi üçün edilən söhbəti "təkidli təklif" kimi dəyərləndirirsə, mübahisə etməyəcəm. İki nəfər arasında söhbətin elə yalnız iki də şahidi var.

Məncə aydın məsələdir ki, kiməsə vəzifə təklif etmək onu toxunulmaz etmir, tənqiddən təminat vermir. Bu mövzuda diskussiyalıq bir şey yoxdur. Başqa bir məqamı vurğulamaq istəyirəm. Hörmətli Gültəkin xanım, mən sizə Xarici Siyasət üzrə müavin vəzifəsini təklif etmişəmsə də, hər halda Daxili Siyasət üzrə müavin vəzifəsi təklif etməmişəm. İndi də düşünürəm ki, siz özünüzün bilavasitə funksiyalarınızı həyata keçirməklə yanaşı, daha toparlayıcı mövqe tutsanız təmsil etdiyiniz quruma və bütövlükdə demokratik düşərgəyə daha çox fayda gətirmiş olarsınız".

G.Hacıbəylinin bu statusuna yazılan şərhlərdə isə müsavatçılarla "Milli Şura" təmsilçiləri bir-birini təhqir atəşinə tutub.

Murad Əliyev adlı istifadəçi yazıb: "Gültəkin Hacıbəyli yenə də yuyulmamış çömçə kimi ortaya düşüb. Hər dəfə ölkəmizdə mühüm beynəlxalq yarış və ya tədbir keçiriləndə sosial şəbəkələrin troll "madonnası" yenə də aktivləşir".

Pərvin Hacıyev isə belə yazıb: "İsa Qəmbər özünü daim gündəmdə saxlamağa çalışan, siyasi cəhətdən tükənmiş bir insandır. Həqiqətən onda çox neqativ aura var. Sifətini görəndə adam depressiyaya düşür... Bir şəxs ki, siyasi tacir statusu ala. Saxta sənəd alveri və sair. Biz onun üzünə vurmadıqca uşaq kimi sırtılır".

**Erməni mətbuatı yazır ki, guya Azərbaycan tərəfindən Avronest Parlament Assambleyasında "Metsamor" AES-in bağlanması ilə bağlı edilən cəhdlər Ermənistan nümayəndə heyətinin səyləri ilə dayandırılıb.**

# Ermənilərin AŞPA-da Azərbaycan üçün yanlış məğlubiyyət görüntüsü yaratmaq cəhdi - Azərbaycan "Metsamor"u beynəlxalq sənədlərdə çoxdan qapadıb...



## *Ramil Hüseynov: "Ermənilərin nə deməsindən asılı olmayaraq, "Metsamor" AES-in bağlanması məsələsi kifayət qədər beynəlxalq müstəvidə aktuallaşıb"*

Erməni deputat Qayana Abramyan bununla bağlı qeyd edib ki, guya artıq əhəmiyyətli uğurlar əldə ediblər: "Azərbaycan nümayəndə heyətinin növbəti antierməni təşəbbüsü, beynəlxalq qətnamələrdə "Metsamor" AES-in bağlanması məsələsini qaldırmaq cəhdləri uğursuz oldu. Səsvermədən əvvəl çıxışımda söylədiyim arqumentlər Avronest deputatları ilə fərdi müzakirələr azərbaycanlıların təklənməsinə səbəb oldu. Bu gün-sabah Avronest Parlament Assambleyasının plenar iclası keçiriləcək".

Ermənilərin bu yöndə səsləndirdikləri arqumentlər reallığı əks etdirmir. Əvvəla məhz Azərbaycan davamlı olaraq bir sıra beynəlxalq tədbirlərdə "Metsamor" AES-in istismara yararlı olmadığını tutarlı arqumentlərlə qaldırıb. Azərbaycanın səyləri sayəsində beynəlxalq ictimaiyyətin bu məsələyə diqqəti artıb. Belə ki, 2012-ci ildə Avropa Parlamenti tərəfindən "Metsamor" AES-in 2016-cı ildə bağlanması ilə bağlı qətnamə qəbul edilib. Ermənistan həyasızlıq edərək buna əməl etməyib. Əvvəl istədilər ki, "Metsamor"un fəaliyyət müddətini 2040-ci ilə qədər uzatsınlar. Bunun narazılığa səbəb olduğunu görüb stansiyanın 2026-cı ilədək istismar olunacağı haqqında qərar qəbul edilib.

Onu da qeyd edək ki, 2018-ci ilin ortalarında Avropa Parlamenti tərəfindən Aİ və Ermənistan arasında imzalanmış yeni ikitərəfli sazişə dair qəbul edilən qətnamədə "Metsamor"la bağlı narahatlıq xüsusi qeyd edilib. Sənəddə Ermənistanda hələ də fəaliyyət göstərən "Metsamor" atom elektrik stansiyası ilə bağlı Avropa Parlamentinin ciddi narahatlığı vurğulanıb. Ən nəhayət, Avropa İttifaqı "Metsamor" AES-in bağlanması üçün 200 milyon avro ayıracağını vəd verib. Təbii ki, bağlanacağı təqdirdə. Bütün bunlar Azərbaycanın səyləri nəticəsində beynəlxalq ictimaiyyətin gündəminə daxil olub. Belə olan halda, guya Azərbaycanın Avronestdə bu məsələni qaldıra bilməməsi ilə bağlı yaradılan süni məğlubiyyət görüntüsü reallığı əks etdirmir.

*"Bunun başlıca təşəbbüskarı da məhz Azərbaycan olub"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu, ermənilərin növbəti təbliğat oyunudur: "Ancaq bu dəfə uğursuz təbliğat işinə girişiblər. Ermənilərin nə deməsindən asılı olmayaraq, "Metsamor" AES-in bağlanması məsələsi kifayət qədər beynəlxalq müstəvidə aktuallaşıb. Bunun başlıca təşəbbüskarı da məhz Azərbaycan olub. Məsələ ondadır ki, Azərbaycan davamlı olaraq bir sıra beynəlxalq tədbirlərdə "Metsamor" AES-in region üçün ciddi təhlükə mənbəyi olduğunu bəyan edib. Bununla bağlı çox əsaslı arqumentlər ortaya qoyub. Məhz bundan sonra bir sıra beynəlxalq qurumlar vəziyyətin ciddiliyinin fərqinə varıb. Ondan sonra Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar "Metsamor" AES-in bağlnması ilə bağlı Ermənistana yönəlik çağırışlarla çıxış ediblər.

Ermənistan isə iqtisadi vəziyyətini bəhanə edərək hər dəfə bundan yayınır. Ən başlıcası, Ermənistan "Metsamor"dan istifadə edib beynəlxalq maliyyə qurumlarından böyük həcmdə maliyyə yardımları qoparmağa çalışır. Bütün hallarda, beynəlxalq qurumlar "Metsamor" AES-in texniki göstəricilərinə görə region üçün təhlükəli bir stansiya olduğunun fərqindədirlər. Sabah hansısa bir qəza olsa, bunun bütün məsuliyyəti Ermənistanın üzərinə düşəcək".

*Vidadi ORDAHALLI*

**Ermənistanın sosial problemləri sadə vətəndaşlarla yanaşı, millət vəkillərini də narahat edir. Orada istismar müddəti bitmiş liftlərin məcburi işlək vəziyyətə gətirilməsi əhalinin həyatını risqə salır. Ancaq Ermənistan hakimiyyəti liftləri yeniləri dəyişmək əvəzinə, təmtəraqlı yeni iş şənliyi keçirməyə hazırlaşır.**

# Paşinyan yeni il şənliyinə 700 min dollar ayırıb, İrəvanda 4500 lift qəzalı vəziyyətdə - əhalidən ağır sosial ittiham...



## *Akif Nağı: "Ermənistan hakimiyyətini əhalinin sosial vəziyyəti, ölkənin iqtisadi durumu, inkişafı qətiyyən maraqlandırmır"*

Bu, Ermənistan parlamentinin deputatı Naira Zöhrabyanın narazılığına səbəb olub. O, İrəvanda yeni il şənliyinin təşkili üçün 700 min dollara yaxın vəsait ayrılmasını sərt tənqid edib. Deputat Ermənistanın müstəqillik tarixində heç vaxt yeni il tədbirinə bu qədər vəsaitin xərclənmədiyini bildirib: "Daha əvvəl məlum olub ki, İrəvan meriyası paytaxtda yeni il bayramının təşkilinə 325 milyon dram, yaxud 700 min dollara yaxın pul xərcləyəcək. Bunun 271 milyon dramı Ermənistan hökumətinin, 54 milyon dramı isə paytaxt büdcəsindən ayrılıb. Mən hər hansı bir bayramın ləyaqətlə qeyd edilməsinin tərəfdarıyam. Ancaq 700 min dollar çox böyük məbləğdir".

O xatırladıb ki, İrəvandakı binalarda, ümumilikdə, 4500 lift var, bunların çox hissəsi istismar müddətini başa vurub. Elə köhnəlmiş liftlər var ki, onları "ölüm liftləri" adlandırırlar. 2019-cu ildə şəhər meriyası cəmi 20 ədəd lift alıb və hər inzibati rayona iki lift düşüb: "Milad ağacına vəsait xərcləməkdənsə, "ölüm liftləri"ni yeniləri ilə əvəz etmək olar. Paytaxtda bu qədər vacib problemlər olduğu halda, 700 min dollara yeni il şənliyinin təşkil edilməsi biabırçılıqdır. Hər gün "ölüm liftinə" minən vətəndaşların 700 min dollar qarşılığında yeni il şənliyi keçirilməsinə sevinəcəyini təsəvvür etmək çətindir".

Ermənistan hakimiyyəti iddia edir ki, onlarda sosial problem yoxdur. Ancaq məlum olur ki, əhali gündəlik olaraq "ölüm liftləri"ndən istifadə edir.

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi

*"Ermənistan əhalisini narahat edən məsələlərdən biri də lift probleminin həll olunmamasıdır"*

ki, Ermənistan hakimiyyətini əhalinin sosial vəziyyəti, ölkənin iqtisadi durumu, inkişafı qətiyyən maraqlandırmır: "Onlar ancaq populizmlə məşğuldurlar. Əhalini ciddi problemləri ilə məşğul olmaqdansa, şou xarakterli tədbirlərə vəsait xərcləyirlər. Bu hal da, istər-istəməz, xalqın haqlı qəzəbinə səbəb olur".

Təşkilat sədrinin sözlərinə görə, Ermənistan iqtisadiyyatını dirçəltmək üçün həmin ölkənin proqramı və imkanları yoxdur: "Ermənistan əhalisini narahat edən məsələlərdən biri də lift probleminin həll olunmamasıdır. Qeyd olunan problemin həll olunması üçün vəsait lazımdır. Ermənistanın iqtisadi vəziyyəti isə bərbad haldadır. Onlar şou tədbirlər, bayramlar keçirməklə gözə kül üfürməyə çalışırlar".

*Günel CƏLİLOVA*

**Dünya gündəmində vaxtaşırı diqqət mərkəzində olan məsələlərdən biri də İrana qarşı ABŞ-ın, İsrailin mümkün hərbi əməliyyatlara start verməsidir. Düzdür, indiyə qədər tərəflər arasında birbaşa elan edilmiş şəkildə savaş baş tutmayıb.**

# Üç güclü dövlət BMT-yə İran barədə məktub yazdı - "nüvə daşıyan raketlər istehsal edilir..."

Amma faktdır ki, tərəflər müxtəlif istiqamətlərdə, məsələn, Suriyada dolayısı yolla olsa da bir-birinə qarşı savaş aparır. Elə İsrailin vaxtaşırı Suriyada İrana məxsus obyektlərə zərbə endirməsi də bunun təsdiqi sayıla bilər. Amma hadisələrin real inkişafı onlar arasında bu dəfə daha dəhşətli və qanlı bir savaşın ola biləcəyini istisna etmir.

Elə bu fonda İsrailin müdafiə naziri Naftali Bennet İrana Suriyada hərbi mövcudluğunu dayandırmağı məsləhət görüb. O qeyd edib ki, İsrail İrana mane olmaq üçün yorulmadan işləyəcək:"Heç kimə sirr deyil ki, İran bizim ölkəmizin ətrafında alov çevrəsi yaratmağa cəhd edir. Onlar artıq Livandadırlar və Suriya, Qəzza zolağı və digər yerlərdə möhkəmlənməyə çalışıblar. Biz İrana deyirik: Suriya sizin Vyetnamınız olacaq". Qeyd edək ki, daha əvvəl İsrailin xarici işlər naziri İsrail Katz da İrana xəbərdarlıq edərək bildirib ki, ölkəsi Tehrana qarşı hərbi əməliyyat imkanını nəzərdən keçirir. O bildirib ki, İsrail İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün hava zərbələri endirməyə hazırdır. Katz İtaliyanın "Corriere della Sera" qəzetinə müsahibəsində "İranın bombardman edilməsi İsrailin nəzərdən keçirdiyi variantdırmı" sualına belə cavab verib:

"Bəli, bu variantdır. Biz İrana imkan verməyəcəyik ki, nüvə silahı əldə etsin və ya onu hazırlasın. Bu İranı dayandırmaq üçün sonuncu imkan olarsa, biz hərbi spektrdə hərəkət etməyə hazırıq". Nazir Avropa ölkələrini tənqid edərək deyib ki, onlar Birləşmiş Ştatların İrana qarşı təzyiqlərinə dəstək vermir:"İranlılar nə qədər ki, özlərini aldadıb Avropanın onları dəstəklədiyini düşünürlər, geri çəkilmək onlar üçün asan deyil".

Qeyd edək ki, ABŞ-ın İranla nüvə sazişindən çıxmasından sonra İran uran zənginləşdirilməsi istiqamətində fəaliyyətini yenidən artırıb. Buna cavab olaraq ABŞ İrana qarşı sanksiyaları kəskinləşdirib. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif isə ölkəsinə qarşı sanksiyaları "iqtisadi terror" adlandırır. O bildirir ki, ABŞ 2015-ci ildə İran və dünya gücləri arasında imzalanmış nüvə sazişinə qayıtmalıdır. Bir daha xatırladaq ki, ABŞ prezidenti Donald Tramp 2018-ci ilin mayında nüvə sazişindən çıxaraq Tehrana sanksiyaları bərpa edib. Avropa, Rusiya və Çin şirkətlərinə verilən möhlət isə bu günlərdə daha 90 günlüyə uzadılıb ki, ABŞ-ın cərimələri ilə üzləşmədən İranın mülki nüvə obyektlərində işi davam etdirsinlər. Amma ABŞ-da İsraili dəstəkləyən qüvvələr möhlətlərin ləğvinə çağırır. Onlar bildirir ki, bu, İrana silah hazırlamaq üçün texnologiyaya çıxış verir. Respublikaçı senatorlar Ted Kruz və Lindsey Qrahamın bu xüsusda bəyanatlarında bildirilir: "Bu məyusedicidir, fəlakətli Obama-İran nüvə sazişini məhv etmək üçün daha bir itirilmiş imkandır. Prezident Tramp dərhal administrasiyasına göstəriş verməlidir ki, mülki nüvə möhlətinin verilməsini dayandırsın". Məhz bu durumda İsrailin İranın nüvə obyektlərinə qarşı mümkün zərbələri də ABŞ-da müəyyən qüvvələr tərəfindən açıq dəstək alır. İndilikdə İranın Suriyadakı obyektlərinə zərbə endirilməsi İsrail üçün əsas prioritetdir. Adını açıqlamayan İsrail Hərbi Hava Qüvvələrinin keçmiş rəhbər komandirlərindən biri "Haaretez" qəzetinə açıqlamasında bunun indilikdə çox vacib olduğunu bildirib:

"Bunlara cavab olaraq İrandan İsraili hədəf alan hücum çox təsirsiz olacaq və İsrailin hazırlaşmaq üçün çox vaxtı olacaq. Lakin Suriyaya hücum bir qədər fərqlidir. Çünki Suriya olduqca yaxındır". Xatırladaq ki, İranın Livanda "Hizbullah"ı silahlandırması və Suriyada bazalar tikməsi adətən İsrail tərəfindən İranın yəhudi dövlətini məhv etmə niyyətinin sübutu kimi göstərilir. İsrail Suriyadakı İran obyektlərinə hücumu artırdıqca, İran bura yeni qüvvələr yığır. Livan və Suriyada İranın mövcudluğu həm hücum, həm də müdafiə xarakterli olaraq qiymətləndirilir. Amma aydındır ki, İsrail İranın ərazisində nüvə obyektlərini vursa, savaş cəbhəsi təkcə yuxarıda adları çəkilən ölkələrlə məhdudlaşmayacaq.

Belə bir vaxtda digər diqqətçəkən məqamlardan biri isə ABŞ-ın Fars körfəzinə yenidən əlavə hərbi qüvvələr cəmləşdirməsidir. Ekspertlər bildirir ki, İsrail İranın nüvə obyektlərinə zərbə endirsə, Fars körfəzindəki Amerika qüvvələri də işə qarışacaq. Hüquq və parlament işlərinə görə məsuliyyət daşıyan SEPAH komandiri, general Məhəmməd Saleh Cokar isə bildiir ki, İran istənilən istiqamətdən hücumu dəf etməyə tam hazırdır. İranlı general ABŞ-ın və İsrailin yeni müharibəyə girişmək istəməyəcəyindən əminliyini ifadə edib. Amma o, savaşa hazır olduqlarını da xüsusi vurğulayıb. Amerika isə indiki halda İrana qarşı daha sərt mövqe tutmaqda davam edir. Vaşinqton regiona əlavə hərbi qüvvə göndərməklə bərabər, diplomatiya, kəşfiyyat istiqamətlərində də fəallığını artırıb. Elə bunun nəticəsidir ki, ABŞ-ın diplomatik fəallığı fonunda Fransa, Almaniya və Britaniya BMT-ni İranın nüvə silahı daşıya bilən ballistik raket hazırlığını davam etdirdiyi haqqında xəbərdar edib. Bu xüsusda yayılan məktubda Tehranın sözügedən proqramdan imtina etməyi planlaşdırmadığı bildirilib.



**Bu raket hazırlığının BMT Təhlükəsizlik Şurası qətnamələrinə zidd olduğu vurğulanıb. Üç ölkə BMT Baş katibi Antonio Quterrişdən növbəti hesabatda Tehranın fəaliyyəti barədə məlumat verməsini istəyib. Ekspertlər isə bildirir ki, bununla ABŞ və İsrail İrana qarşı fəaliyyətlərində daha çox beynəlxalq dəstək almağa çalışırlar. Belə vəziyyət onlara İrana qarşı savaşa da başlamağa lazımi imkanlar verir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Beynəlxalq arenada yeni qəti rəy - Ermənistan üzündən 2019-cu il itirildi və Qarabağ müharibəsinə doğru bir addım da atıldı...

**Başa çatmaqda olan cari il ərzində Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansısa irəliləyiş olmadı. Amma real təhlillər göstərir ki, indiki vəziyyətin uzun müddət davam etməsi də qeyri-mümkündür və Azərbaycan işğal siyasətinin davamına yol vermək niyyətində deyil. Bunu artıq erməni tərəfi də açıq şəkildə etiraf edir.**

Erməni mediası yazır ki, əslində, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi məlumdur. Bu mövqe sonuncu dəfə xarici işlər nazirlərinin Bratislava görüşündən əvvəl açıqlanıb. Azərbaycanın tələbləri aşağıdakılardır:

1) Ermənistan Silahlı Qüvvələrinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini və ətraf ərazilərini tərk etməsi; 2) Azərbaycanlı məcburi köçkünlərin Qarabağa qayıtması; 3) Bundan sonra Qarabağın statusunun təyin edilməsi. Tələblərin sonunda Azərbaycan digər variantlarla razılaşmadığını olduqca qəti bir şəkildə əlavə edib. Artıq neçənci gündür ki, erməni mediası və rəsmiləri bu bəyanata kəskin reaksiya verməklə yanaşı, müharibə ilə bağlı qorxularını dilə gətirməyə məcbur olur və məsələni müxtəlif istiqamətlərdən təhlil etməyə çalışırlar. Bu xüsusda "armenianreport" portalı yazır: "Bəllidir ki, Ermənistanda və ya dünyanın heç bir ölkəsində belə bir həll yoluna razılıq verən hər hansı bir erməni yoxdur. Lakin bu da bir həqiqətdir ki, Ermənistan və Azərbaycan xarici işlər nazirləri görüşüb və bəzi məsələləri müzakirə ediblər. Bununla da iki çox təbii sual ortaya çıxır:

1) Bir tərəfin mövqeyi aydın və bu şəkildə qətidirsə, nə ətrafında danışıqlar aparılır?

2) Ermənistan tərəfi bu sərt mövqeyə qarşı hansı əks arqumentləri qoyur? Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasına görə, "atəşkəs rejimi etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsi" haqqında, həmçinin "xalqları sülhün bərqərar edilməsinə hazırlamaqda əldə edilən təvazökar nəticə" kimi nəzərdən keçirilib. Amma Ermənistan cəmiyyətində hər hansı bir layihənin müzakirə edildiyi, Azərbaycanın yuxarıda göstərilən tələblərinə cavab verəcək konkret mövqe yoxdur. Bunun əksinə inandırmaq üçün, yəqin ki, eyni dərəcədə Ermənistan tərəfinin də danışıqlardakı mövqeyini əks etdirən açıqlamalarını bilməliyik. Ermənistan xarici işlər nazirinin Bratislavada 26-cı ATƏT Nazirlər Konfransı çərçivəsində Qarabağda yaşayan əhalinin "öz müqəddəratını təyin etmə və təhlükəsizlik" hüququnu vurğulayan çıxışı bu baxımdan kifayət deyil. Azərbaycan dəqiq bir plan açıqlayır, Ermənistan isə yalnız şərtləri irəli sürür". Bundan başqa qeyd olunur ki, Azərbaycan, şərtlərinə əməl olunmayacağı təqdirdə, məsələni güc yolu ilə həll etmək üçün də kifayət qədər hazırlıq görüb.

Elə rusiyalı ekspert Aleksey Fenenko da məsələyə eyni prizmadan yanaşır. Bu xüsusda o qeyd edir: "2019-cu il Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında qaçırılmış il oldu. Qorxuram, tarix artıq neçənci dəfə eyni şeyi təkrarlasın. Dəyişiklik olmasa, yeni Qarabağ savaşına şahidlik edə bilərik. Gücünə güvənən Azərbaycan əraziləri üzərində nəzarəti bərpa etməkdə israrlıdır". Onun sözlərinə görə, müharibə baş versə, bunun məsuliyyətini Ermənistan daşıyacaq. Ekspert qeyd edir ki, İrəvan Qarabağ münaqişəsinin nizama salınması prosesinə ikinci dərəcəli məsələləri daxil etməyə çalışır, xüsusilə, etimad mühitinin formalaşdırılması kimi humanitar məsələləri: "Doğrudur, bu təəccüblü deyil. Son 30 ildə erməni tərəfi münaqişənin həlli ilə bağlı heç bir təklif irəli sürməyib. Azərbaycanın, Rusiyanın, ABŞ-ın və Fransanın təklifləri olub. Bu təklifləri tənqid etmək, müxtəlif cür şərh etmək olar, lakin erməni tərəfinin bütöv sənəd kimi heç bir təklifi yoxdur. Ermənistan Qarabağı danışıqlar masasına tərəf kimi qəbul etdirmək istəyir, hərçənd bu, sülh prosesinin pozulması deməkdir. İstisna etmirəm ki, Paşinyan danışıqlar prosesini bloklamağa davam etmək üçün bunu masaya şərt kimi qoysun. Ermənistanın baş naziri ola bilir ki, Azərbaycan buna getməyəcək. Paşinyan da deyəcək ki, budur, bizim təklifimiz var, amma qəbul etmirlər". Fenenko qeyd edir ki, Ermənistan Moskvanın planını da alt-üst edir: "2016-cı ildə Rusiya ilkin addım kimi Qarabağ ətrafındakı rayonların qaytarılması ilə bağlı plan təklif etmişdi və hər iki tərəf buna razılaşdı. Paşinyan isə buna qarşı çıxır və iddia edir ki, masada heç bir sənəd yoxdur. Halbuki o, Ermənistanın baş naziri olaraq, əvvəlki razılaşmaların varisidir. Hesab edirəm ki, İrəvan bundan sonra da danışıqlar prosesini pozmaq üçün maksimum cəhd göstərəcək". Rusiyalı politoloq bu halda Qarabağda müharibə ehtimalını istisna etmir: "Lakin tərəflər hələ danışıq prosesini davam etdirəcəklər. Heç bir nəticənin əldə olunmadığı tam ortaya çıxanda, eskalasiya başlana bilər".

Məsələyə Rusiyanın "Kommersant" nəşrinin yanaşması da olduqca maraqlıdır. Rusiyalı politoloq Sergey Markedonovun müəllifi olduğu məqalədə qeyd olunur ki, Ermənistanın gedişləri Moskvanı da qane etmir. Bu halda Kremlin Ermənistan üçün ən böyük cəzası yeni Qarabağ savaşında İrəvanı güclü Bakının qarşısında yalnız qoyması ola bilər.

Ekspert xatırladır ki, Bratislavada ATƏT-in XİN rəhbərlərinin 26-cı iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların növbəti raundu oldu: "Bununla Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan 2019-cu il ərzində beşinci dəfə görüşdülər. Bu təmaslara Azərbaycan və Ermənistan liderlərinin də görüşləri əlavə edəndə, danışıqlar prosesinin intensivləşdiyini görmək olur. Lakin bütün bunlar Cənubi Qafqazın ən mürəkkəb problemi olan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı praktiki nəticələrin əldə olunmasına gətirib çıxarmadı. Münaqişə tərəfləri mövcud məsələlər, xüsusən də Dağlıq Qarabağın gələcək statusu, ətraf rayonların azad edilməsi və qaçqınların qayıdışı üzrə güzəştlərə hazır deyil. Bu fonda atəşkəs sazişinin 25 ili tamam olsa da, cəbhədə müddətsiz atışmalar olur. Və biz "Qarabağ kəfkiri" işini görürük, nə vaxt danışıqların raundu başlayır, təmas xəttində tərəflər toqquşur. Bu toqquşma təkcə təmas xəttində yox, Azərbaycan və Ermənistan arasındakı dövlət sərhədində də müşahidə olunur. Bütün bunlar o deməkdir ki, danışıqlar və görüşlər mənasızdır? İlk baxışda belədir, çünki hissolunan nəticə yoxdur. Lakin predmetlə daha dərin tanışlıq və adekvat qiymətləndirmə zamanı cavablar birmənalı deyil. Nəticə kimi "Qarabağ kəfkiri" diplomatik formata güc tətbiqinin əlavə edilməsi üzrə hərəkət edir". Sergey Markedonov hesab edir ki, mövcud vəziyyətdə münaqişənin idarə edilməsi prinsipial olaraq əhəmiyyətlidir:"Sülhə nail olmaq alınmırsa, təmas xəttində eskalasiyanın qarşısını almaq və dialoqu saxlamaq yaxşı nəticədir. Amma bu nə qədər davam edəcək? Bax bu bilinmir. Yəni hər an genişmiqyaslı toqquşmalar mümkündür".

Rusiyanın tanınmış ictimai xadimi, tarixçi-alim Oleq Kuznetsov da məsələyə eyni prizmadan yanaşır: "Savaşın yenidən başlanması Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxaracaq. Bu mənada yaxşı olardı ki, Ermənistan sülh danışıqlarında real addımlar atmaq cəsarətini nəhayət, özündə tapa bilsin. Əks təqdirdə savaşın yenidən başlanması qaçılmazdır. Bunu baş nazir Nikol Paşinyan özü də yaxşı bilir. Müharibənin davamının Ermənistan üçün daha dağıdıcı nəticələrə gətirib çıxaracağını da İrəvanda yaxşı bilirlər. Bu səbəbdən Ermənistan artıq ya real addımlar atmalı, ya da yeni fəlakətlərə hazır olmalıdır".

Bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, indi istər hərbi, istərsə də diplomatik cəbhədə vəziyyət tamamilə Azərbaycanın lehinədir. Bunu həmsədrlər, beynəlxalq ekspertlər və media qurumları da davamlı şəkildə Ermənistan rəhbərliyinin diqqətinə çatdırır. Sadəcə, əsas məsələ budur ki, Ermənistan tərəfi reallıqdan nəticə çıxarıb məntiqlə hərəkət etməli, zəbt edilmiş ərazilərin boşaldılmasına başlamalıdır. Əks təqdirdə düşməni ordumuzun sarsıdıcı zərbələri gözləyir.

Hələlik isə Azərbaycan danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsini həll etmək istəyir. Amma bu mümkün olmadıqda, hərbi bir yol istisna deyil. Azərbaycan tərəfinin mövqeyi konkretdir, yəni məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənilər işğal etdikləri torpaqlardan çıxmalıdır, daha sonra digər məsələlərlə bağlı danışıqlar mümkün sayılır. Ekspertlər isə bu fonda diqqəti ona yönəldir ki, indilikdə Ermənistanın daxili və xarici siyasəti həmişəki kimi reallıqdan uzaq olub, qeyri-konstruktiv və əsassız prinsiplərə söykənir. Bu və digər problemləri, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı uğursuzluqlarını gizlətmək üçün isə Paşinyan getdikcə daha çox radikal mövqe nümayiş etdirir. Amma bu radikallıq Ermənistanın özü üçün kəskin problemlər yaradır. Eyni zamanda Ermənistanın bu mövqeyi regionda kifayət qədər təhlükəli vəziyyət yarada bilər. Burada, yuxarıda qeyd olunduğu kimi, müharibə riski artır. Ekspertlər hesab edirlər ki, hansısa məqamda regionda hərbi əməliyyatlar başlaya bilər.

Bu məqamın regiondakı duruma təsiri isə daha çox dərəcədə mənfi ola bilər. Amma Ermənistan üzündən regionda geosiyasi mənzərəni qeyri-müəyyənliyə salınmasının qarşısını asanlıqla almaq olar. Bunun üçün Minsk Qrupunun həmsədrləri olan ABŞ və Rusiyanın Ermənistandan Qarabağ münaqişəsinə dair qəbul edilən sənədlərin müddəalarına əməl etməsi tələbini qəti qoyması kifayətdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar bu fonda daha tez nəticələr verə bilər. Əks təqdirdə savaş qaçılmaz sayılır və Azərbaycanın sürətli inkişafı, hərbi sahədə nailiyyətləri savaşın nəticələrinin necə olacağını da indidən müəyyən etməyə əsas verir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Sabiq prezident Serj Sarkisyan "Qarabağ klanı"na xəyanət etdi...

**Məlum olduğu kimi, bir neçə gün öncə Ermənistanın sabiq prezidenti Serj Sarkisyana 1 milyon dollar pulu mənimsəmə işini təşkil etməklə bağlı ittiham irəli sürülüb. O, dizel yanacağı tenderini öz yaxını Barseq Bəyləryana məxsus "Fleş"ə verib.**

Ermənistan Respublika Partiyası artıq bu ittihamı "siyasi təqibin qalmaqallı təzahürü" kimi qiymətləndirib. Partiya üzvlərinin sözlərinə görə, Sarkisyanın son müsahibələri fəaliyyətdə olan hakimiyyəti narahat edib, buna görə də ittiham irəli sürülməsinin məqsədi siyasi əleyhdarları susdurma cəhdi hesab olunur.

Ermənistan parlamentinin deputatı Kristine Poqosyanın sözlərinə görə, Sarkisyanı bununla yanaşı, həm də qarşıda "1 mart" işi gözləyir:"Sarkisyanın qarşıda "1 mart" işi var və Aprel döyüşlərini araşdıran istintaq komissiyasına gəlməlidir. Onu maraqlı günlər gözləyir".

Bütün bunlar sabiq prezidentin həbsə atılmasını qaçılmaz edir. O da aydındır ki, Sarkisyan həbsə atıldığı halda "Qarabağ klanı"nın Ermənistanda mövqeyi xeyli sarsılacaq. Artıq o da məlum olub ki, hakimiyyət Sarkisyanın Avropaya, həmçinin Rusiyaya gözlənilən səfərlərinin də qarşısını alıb. Məsələ burasındadır ki, ilkin istintaq orqanı ittiham olunan, barəsində ehtiyat tədbiri seçilən şəxslərdən pasportu götürür və onlar ölkədən çıxa bilməzlər. Məlumata görə, Sarkisyanın da pasportu əlindən alınıb. Lakin bütün bunların həm də bir şou olduğuna dair də məlumatlar səslənir.

Ermənistanın "1in.am" portalı yazır ki, ümumiyyətlə, Sarkisyan ətrafında proseslər çox maraqlı müstəvidə cərəyan edir:"Serj Sarkisyan hakimiyyətinin oğru, korrupsioner xarakterli olması aşkardır və aydındır ki, kriminal oliqarxiyanın 20 illik hakimiyyəti konkret adamların, respublikanın ikinci və üçüncü prezidentlərinin və onların ətrafının acgözcəsinə varlanmasına xidmət edib. Bu mənada, Serj Sarkisyana qarşı irəli sürülmüş ittiham nəinki obyektivdir, eyni zamanda gözlənilən və öncədən görüləndir.

Lakin bütün problem ondadır ki, cəmiyyət Serj Sarkisyana qarşı daha ciddi ittiham gözləyirdi. Amma ona qarşı yalnız 1 milyon dollarlıq mənimsəmə faktı ilə bağlı cinayət işi qaldırılıb. Heç bir halda Sarkisyana qarşı irəli sürülmüş ittihamın obyektivliyini, qanunauyğunluğunu şübhə altına almaq lazım deyil, lakin bu ittiham zəifdir və belə təəssürat yaranır ki, cəmiyyətdə inqilab komandası və onun, guya gizli danışıqlarının olması haqqında gedən söz-söhbət kəsilsin deyə üçüncü prezident müttəhim statusu alıb. Digər tərəfdən, Serj Sarkisyan həbs olunmayıb. Bu da təlqin edir ki, mövcud hakimiyyət Ermənistan Respublika Partiyasına və onun liderinə manevr etmək və siyasi möhtəkirliklə məşğul olmaq imkanı yaradaraq, "məxməri" münasibət göstərməyə davam edir. Sarkisyana qarşı irəli sürülən ittiham tamdəyərli deyil, yarımçıqdır. Bu da onun Zaqrebdəki çıxışının və ya son dövrlərdəki aktivliyinin hakimiyyətdə "narahatlıq" yaratması haqqında illüziya yaradaraq, siyasi manipulyasiyalar, möhtəkirliklər üçün pəncərə açır.

Serj Sarkisyan əvvəlki sistemin cinayət simvollarından biridir və 1 mart hadisələrinə görə Robert Köçəryanla birlikdə eyni dərəcədə məsuliyyət daşıyır. Hakimiyyət Sarkisyanı manevr etmək imkanlarından, təqib olunan siyasi xadim obrazı əldə etməkdən məhrum etmək üçün onun cinayətkar obrazını tamamlamağa məcburdur. Maraqlıdır ki, belə bir vaxtda "Çiçəklənən Ermənistan" Partiyasından olan deputat Gevorq Petrosyan "məxməri inqilab"ətrafında yeni hakimiyyətlə Serj Sarkisyan arasında əldə edilən razılaşmalardan danışaraq bəyan edib ki, bu iqtidarın hakimiyyətə gəlməsi üçün Serj Sarkisyana nə qədər borclu olduğunu dəqiq bilmir. Yəni Gevorq Petrosyan iddia edir ki, Nikol Paşinyan məhz Sarkisyanla hansısa razılaşma əsasında hakimiyyətə gəlib və bu səbəbdən sabiq prezidentə qarşı sərt ittihamlar, çoxsaylı cinayət işlərində iştirakla bağlı məsuliyyət məsələsi qaldırılmır.

Petrosyan kifayət qədər maraqlı alt mətnlərdən danışır. Lakin istənilən halda, Gevorq Petrosyanın bəyanatı onun şəxsi fikirlərini deyil, ən azı, başda Haqik Tsarukyan olmaqla, "Çiçəklənən Ermənistan" Partiyasının müəyyən dairəsinin onun ağzı ilə ifadə olunan fikirlərini əks etdirir. Bundan bir neçə gün öncə Tsarukyan başqa mövzu haqqında danışarkən "Gevorq hər şeyi düz edir" deyərək, özü bunu təsdiqləyib. Deməli, Gevorq Petrosyanın ağzı ilə, praktiki olaraq, Tsarukyan yeni hakimiyyətlə Serj Sarkisyan arasında razılaşmalardan danışır. Ən azı, heç nə bilməməsi kontekstində… Bu halda, ən əhəmiyyətli olan eyhamdır. Özü də Serj Sarkisyanın həbsi fonunda. Hər şeydən göründüyü kimi, eyhamın bir tərəfi ondan ibarətdir ki, tərəflərdən hansı birisə razılaşmanı pozub.

Lakin eyhamın digər tərəfində daha diqqətəlayiq cəhət ola bilər. Belə ki, Serj Sarkisyana qarşı ittiham irəli sürülməsinə baxmayaraq, "Çiçəklənən Ermənistan" Partiyası və ən azı, köhnə sistemin müəyyən hissəsi "Çiçəklənən Ermənistan" Partiyasının ağzı ilə bəyan edir ki, bu ittihama "inanmır". Fakt budur ki, köhnə sistemin Serj Sarkisyana qarşı başqa ittihamı var: o, hakimiyyəti təhvil verib və hamını fakt qarşısında qoyub. Mühüm deyil ki, təhvil verib və ya saxlaya bilməyib, uduzub və sair. Mühüm olan odur ki, bu ittiham və onunla birlikdə, hər halda, onun uduzmadığı, hakimiyyəti təhvil verdiyi haqqında



bir şübhə mövcuddur. Bunu Gevorq Petrosyanın eyhamı da təsdiqləyir. İstənilən halda, maraqlıdır, görəsən, Tsarukyan bu dəfə də deyəcək ki, Petrosyan düz danışır? Bununla birlikdə, Petrosyanın eyhamı bu fonda, "Mənim addımım" blokunun və "Çiçəklənən Ermənistan" Partiyasının münasibətlərinin kəskinləşdiyi, Nikol Paşinyanın bu partiyaya qapını göstərdiyi bir vaxtda da maraqlıdır.

Deyəsən, "Çiçəklənən Ermənistan" Partiyası parlamentin işinin uzunmüddətli boykot edilməsi haqqında qərar qəbul etməyə cəsarət etməyib. Bu, əlbəttə, rasional addımdır, lakin "Çiçəklənən Ermənistan" Partiyasının həm parlamentdə, həm də parlament xaricində ata biləcəyi addımlar əhəmiyyətli dərəcədə məhdudlaşıb. Və görünür, bu durum Tsarukyanı belə düşünməyə məcbur edir ki, o, inqilaba su verməyinə baxmayaraq, onu sulamayıb, bəlkə də "Çiçəklənən Ermənistan" Partiyasının siyasi yolunu qurudub". Bütün bu qeyd edilənlərdən aydın görünür ki, Ermənistanda maraqlı siyasi proseslər cərəyan edir. İndi bu fonda Sarkisyan həbsə atılmasa, bu onun Paşinyanla həqiqətən müəyyən razılaşması olduğunu təsdiqləyəcək. Eyni zamanda bu hal Sarkisyanın "Qarabağ klanı"na xəyanətini də üzə çıxaracaq.

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi...

**"Bəziləri deyir ki, kiminsə xoşuna gəlmək, ya da donor pullarını əsaslandırmaq üçün biz Avropaya inteqrasiya olmalıyıq. Sual olunur, biz hansı Avropaya inteqrasiya olmalıyıq? Bugünkü Avropa göz qabağındadır… Biz böhrana inteqrasiya olmalıyıq?! "Müsəlmanlara stop" deyilən yerə inteqrasiya olmalıyıq?! Qaçqın müsəlmanlara münasibətdə ikili standartlar tətbiq edənlərin cəmiyyətinə inteqrasiya olmalıyıq?!** Müsəlmanları qəfəsdə saxlayanların cəmiyyətinə inteqrasiya olmalıyıq?!"

Bu sözləri Prezident İlham Əliyev bir müddət öncə Rusiyanın nüfuzlu "Kommersant" qəzetinə müsahibəsində avrointeqrasiya mövzusunu şərh edərkən deyib. Qəzetin keçmiş SSRİ ölkələrinin dövlət başçılarına həsr olunmuş yeni layihəsinin ilk müsahibi seçilən Azərbaycan Prezidenti bu fikirlərilə əslində Avropanın bugünkü vəziyyətini çox düzgün xarakterizə edib. Məsələ burasındadır ki, Sovetlərin tərkibindən qopan bütün respublikalar ilk dönəmdə üzünü Qərbə tutaraq bu istiqaməti özünün gələcək inkişafında prioritet kimi görürdü və bu hardasa başadüşülən idi. Tam 70 illik dönəmdə sovetlərin "dəmir pərdəsi" ilə dünyadan təcrid olunmuş bu respublikalar üçün o zaman Avropanın inkişaf səviyyəsinə çatmaq işıqlı bir arzu idi. Çünki o dönəmdə inkişaf sözü az qala Avropa, Qərb sözləri ilə assosiasiya olunurdu. İndi isə...

**"Bugünkü Avropa göz qabağındadır..."**

İndi isə, Azərbaycan Prezidentinin də vurğuladığı kimi, bugünkü Avropa göz qabağındadır və elə məsələlər var ki, o məsələlərdə biz Avropaya deyil, Avropa bizə inteqrasiya etməlidir. Lakin təbii ki, dünya birliyi tək Avropa demək deyil və dünya birliyinə inteqrasiya dövrün, zamanın tələbidir. Azərbaycan isə müstəqillik illəri ərzində özünün irimiqyaslı layihələri ilə, demək olar ki, bütün postsovet ölkələrini geridə qoyaraq dünyanın aparıcı dövlətləri sırasında layiqli yerini tutmağı bacarıb. XXI yüzillikdə - dünyanın "inteqrasiya dalğası" yaşadığı bir dövrdə Azərbaycanın beynəlxalq təşkilatlara üzvlüyü, müxtəlif təyinatlı qlobal forumlara, dünya miqyaslı idman və mədəni tədbirlərə ev sahibliyi etməsi və bu missiyaları öhdəsindən layiqincə gəlməsi nəticəsində ölkəmiz nəinki dünya çapında tanınır, hətta bir sıra qlobal, xüsusən enerji məsələlərində onun mövqeyi eşidilir.

**Azərbaycanın dünyaya inteqrasiyasında əhəmiyyətli faktorlardan biri - regional üstünlük...**

Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyasının əsasında dayanan ən önəmli faktorlardan biri ölkəmizin son illərdə həyata keçirdiyi beynəlxalq layihələr və bu layihələrin nəticəsi olaraq Şərqlə Qərbi birləşdirən tranzit ölkə rolunda çıxış etməsidir. Bakı-Tiflis-Qars dəmir yolunun açılması ilə Asiya ilə Avropanı ən optimal yükdaşıma marşrutu ilə təmin edən Azərbaycan getdikcə bu marşruta daha çox ölkənin diqqətini cəlb etməkdədir. Bunun əsas səbəbi isə həmin marşrutla yüklərin hər iki istiqamətə daşınmasının daha çevik və daha az maliyyə ilə həyata keçirilməsidir ki, bunda əsas udan tərəf rolunda elə Azərbaycan özü çıxış edir. Çünki daha çox yük daha çox gəlir deməkdir. Bundan başqa, ölkəmizin təşəbbüsü və bilavasitə vasitəçiliyilə TAP, bu günlərdə istifadəyə verilən TANAP kimi transmilli enerji marşrutları da var ki, həmin kəmərlər Azərbaycanı bir çox dövlətlərin maraq dairəsinə gətirib. Beləliklə də Azərbaycan dünya miqyasında özünü etibarlı tərəfdaş kimi təsdiqləyib.

Əslində, gənc ölkə olmasına rəğmən, Azərbaycanın yürütdüyü balanslı siyasət ABŞ-ın və Avropa İttifaqının diqqətini cəlb edib. O üzdən Qərb özü də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməkdə maraqlıdır. Azərbaycanın geostrategiyasının ana xəttini təşkil edən qonşularla sıfır problem konsepsiyası isə günümüzün ən aktual problemlərindən olduğundan, aparıcı dünya dövlətlərinin diqqət mərkəzində daha çox yer almaqdadır. Hərçənd, zaman-zaman dünya dövlətlərinin bir çox hallarda Azərbaycanın ən ağrılı yeri olan təcavüzkar Ermənistana münasibətdə ikili standartlardan çıxış etdiyinin, nələrinsə və ya kimlərinsə xətrinə həqiqətdən yan keçdiklərinin şahidi oluruq. Bununla belə, Azərbaycan, hər nə qədər ikili standartlarla üzləşsə də, beynəlxalq təşkilatlarla və onların üzvü olan dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlıqda maraqlı olduğunu hər addımda göstərməkdədir.

**Təcavüzə təmkinli yanaşma - regionda təhlükəsizliyin prioritetliyi...**

Maraqlıdır ki, əsasını ötən əsrin 90-cı illərindən götürən inteqrasiya prosesinin aparıcı qayəsini Avropaya çıxış və dünya birliyi ölkələrilə bir sırada dayanma məqsədi təşkil etsə də, Azərbaycan öz siyasətində regional əməkdaşlığa da geniş üstünlük verir. Bunun zəruriliyinin isə isbata ehtiyacı yoxdur, çünki Azərbaycan regionun ən böyük enerji ehtiyatlarına malik, eyni zamanda iri iqtisadi layihələrin gerçəkləşdirildiyi məkan olduğundan, qonşu ölkələrlə dinc yanaşı yaşama və əməkdaşlıq regionun, beləliklə də beynəlxalq əhəmiyyətli layihələrin təhlükəsizliyinin qarantı kimi çıxış edir. Faktdır ki, bu konsepsiyanın xarici siyasətinin ana xəttini təşkil etməsi nəticəsində müstəqil Azərbaycan dövləti yeni dünya düzənində öz layiqli yerini tutmağı bacardı. Baxmayaraq ki, özü işğala məruz qalmış ölkədir və torpaqlarının 20 faizi hələ də işğal altındadır. Azərbaycanın məruz qaldığı işğal faktı əslində aparıcı dünya dövlətləri tərəfindən də etiraf olunur və ölkəmizin dilbər guşəsi Qarabağda qurulan qondarma rejim bu günə kimi, elə təcavüzkar Ermənistan da daxil olmaqla, heç bir dövlət tərəfindən tanınmayıb. Bununla belə, yürütdüyü sülhsevər və tarazlı siyasət Azərbaycanı məsələnin hərbi yolla çözümünü ən son variant kimi nəzərdən keçirməyə sövq edir. Bu təmkinli yanaşmanın əsasında isə regionda təhlükəsizliyin təmin edilməsi məsələsində məsuliyyətin dərk olunması və onsuz da narahat dünyamızda daha bir müharibə ocağının yaranmasına səbəb olmamaq kimi humanist bir qayə durur.



**Avropa Birliyi, Avrasiya İqtisadi Birliyi, Qoşulmama Hərəkatı...**

Yerləşdiyi coğrafiyada balanslı, qarşılıqlı faydalı əməkdaşlığa söykənən partnyorluq siyasəti yürüdən Azərbaycan dövləti hazırda həm Avropa Birliyi, həm Rusiya və onun əsas partnyorlarının təmsil olunduğu Avrasiya İqtisadi Birliyi ilə, həm də Qoşulmama Hərəkatı ilə uğurla əməkdaşlıq edir. Lakin bu o demək deyil ki, Bakı bu beynəlxalq təşkilatların hər bir siyasi addımına birmənalı dəstək verir. Elə Ermənistan kimi ölkələrdən fərqimiz də ondadır ki, Azərbaycan heç kəsin diqtəsi ilə hərəkət etmir, yalnız əməkdaşlıq etdiyi təşkilatların yürütdüyü siyasət ölkənin maraqlarına uyğun olduqda onlarla birgə hərəkət edir, əksi olduqda isə özünün dövlət maraqlarını təmin edən daha rasional siyasətə üstünlük verir.

Ümumiyyətlə, yerləşmiş olduğu regionun geosiyasi, geostrateji və iqtisadi cəhətdən dünyanın siyasi xəritəsində mühüm yer tutmasında Azərbaycanın rolu danılmazdır. Üstəlik, yürütdüyü balanslı siyasət nəticəsində bölgənin aparıcı ölkəsinə çevrilməsi ölkəmizin hər zaman qabaqcıl dünya dövlətlərinin baxış bucağında yer almasına səbəb olur. İstər qonşu dövlətlər, istərsə də Qərb və Şərq ölkələri ilə olan münasibətlərində siyasətinin ana xəttini isə özünün milli maraqlarını öndə tutmaq strategiyası təşkil edir. Belə olmasaydı, bu gün Azərbaycan dünyada hegemonluq savaşı aparan iki supergücdən birini seçmək zorunda qalardı ki, nəticədə qan qoxulu cəbhələşmədə tərəf olmaq taleyi yaşayardı. Bu supergüclərin hər ikisinə "xoş gəlmək" kursu götürən Ermənistanın isə durumu ortadadır. Lakin Azərbaycan istər ABŞ, istərsə də Rusiya ilə münasibətlərdə elə bir tarazlaşdırılmış siyasət xətti götürdü ki, həm özünün sabitliyini və təhlükəsizliyini qoruya bildi, həm də adıçəkilən ölkələrlə istənilən sahədə əməkdaşlığını yüksək səviyyədə davam etdirməkdədir.

**Qonşuluq siyasətinin əsas qayəsi - sıfır problem...**

Eyni sözləri yaxın qonşularımız olan regional ölkələrlə aparılan qonşuluq siyasəti haqqında da demək olar. Faktdır ki, artıq neçə illərdir yaxın qonşumuz İran İslam Respublikası dünya birliyinin tətbiq etdiyi beynəlxalq iqtisadi sanksiyalar altındadır. Onsuz da qlobal iqtisadi böhranın gətirdiyi çətinliklərin təsirini üzərində hiss edən bir ölkənin üstəlik iqtisadi sanksiyalara məruz qalmasının onun durumuna və gələcək inkişafına hansı təsirləri göstərəcəyini təsəvvür etmək çətin deyil. Bir çox ölkələrin dəstək verdiyi bu sanksiyalara, faktdır ki, Azərbaycan istər qonşuluq münasibətlərini, istərsə də humanizmi əsas gətirərək qoşulmadı. Çünki Azərbaycan Prezidenti hər zaman beynəlxalq və dövlətlərarası münasibətlərdə ədalətli yanaşmanın, sabitliyin, təhlükəsizliyin vacibliyini xüsusi qeyd edib və onun bu mövqeyi İran kimi ABŞ sanksiyaları altında əzilən ölkə tərəfindən xüsusi razılıqla qarşılanır. Bunu həmin ölkənin mediasında yer alan fikirlər də təsdiq edir. İRNA agentliyi bu xüsusda yazır:"Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin hər zaman İran əleyhinə qoyulan embarqolara qarşı olduğunu və bunu bütün beynəlxalq tədbirlərdə dilə gətirdiyini söylədi". Təbii, belə münasibətlər qonşu ölkələrdə yüksək qiymətləndirilir və gələcəkdə həmin ölkələrlə bütün sahələrdə əməkdaşlığın daha möhkəm təməllər üzərində qurulmasına və inkişafına öz töhfəsini verir. Üstəlik, bu ölkədə hələ də xatırlayırlar ki, cəmi bir neçə il öncə dünya birliyi İslam Respublikasına qarşı sözün həqiqi mənasında silahlanana da İlham Əliyev Azərbaycandan bu ölkəyə qarşı platsdarm kimi istifadə olunmasına yol verilməyəcəyini birmənalı şəkildə bəyan etdi. Yüksək səviyyədə verilən bu tip bəyanatlar isə öz həqiqi qiymətini alır və ölkələr arasında istər münasibətlərin, istərsə də əməkdaşlığın daha da inkişaf etdirilməsində baza rolunu oynayır. Çünki hər bir dövlətdə dərk edirlər ki, ölkənin gələcək inkişafı onun daxili sabitliyindən və təhlükəsizliyinin qorunmasından asılıdır. Bu sabitliyin qarantı isə qonşu ölkələrlə balanslı siyasətin qurulmasından, dinc yanaşı yaşama prinsiplərinə əməl olunmasından birbaşa asılıdır. Lakin o da var ki, qonşu dövlətlər arasında ədavət yoxdursa, onlar bir-birinin daxili siyasətinə qarışmırsa, bu hələ məsələnin tam həlli deyil. Çünki bu halda bu dövlətlərdən birinin, tutaq ki, ərazi bütövlüyünə təhlükə yaranırsa və digər dövlət ona dəstək vermirsə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sivil qaydada onun haqq səsinə səs vermirsə bu da normal qonşuluq siyasəti sayıla bilməz. Bu mənada Azərbaycan, işğala məruz qalan dövlət kimi, məsələnin mahiyyətini daha dərindən dərk edir və qonşu dövlətlərə yönəlik haqsızlıqlara sivil qaydada etiraz etməyi bacarır desək, yəqin ki, mübaliğə sayılmaz. Elə Azərbaycanın xarici siyasət kursunda bu aspektin əsas götürülməsinin nəticəsidir ki, Xocalı soyqırımını uzun illər görməzdən gələn dövlətlər bu gün bu faciəni öz adı ilə çağırır. Bu il fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı kütləvi umumxalq yürüşündə Rusiyadan böyük bir nümayəndə heyətinin iştirak etməsi, Azərbaycan Prezidentinin bu ölkənin ən populyar telekanallarından olan "Rossiya-24"ə soyqırım barədə Ermənistanı özündən çıxaran ifşaedici geniş açıqlama verməsi və bu müsahibənin nəinki Rusiyada, hətta qonşu Ukrayna və Orta Asiya ölkələrinin televiziyalarında nümayiş dediklərimizə əyani sübutdur.

**Azərbaycan - Şərqlə Qərbi qovuşduran məkan…**

Prezident İlham Əliyev çıxışlarının birində deyib ki, "Müasir Azərbaycan modernləşməkdə olan demokratik transformasiya, açıq iqtisadiyyat və vətəndaş azadlığı məkanıdır. Bütün bunlar regionda və onun hüdudlarından kənarda bizə olan münasibəti müəyyənləşdirir" və bu reallıqdır. Bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələr reallaşdıran dövlət olaraq qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilir. Azərbaycanın istər beynəlxalq əməkdaşlıq sahəsində, istərsə də tranzit ölkə kimi əhəmiyyəti artıq dünya miqyasında qəbul olunur. Bunun isə praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu şübhəsizdir. Və o da şübhəsizdir ki, Azərbaycan özünün regiondakı nüfuzlu mövqeyini daim inkişaf etdirməklə qlobal inteqrasiya siyasətini bundan sonra da uğurla davam etdirəcək.

*Samirə SƏFƏROVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# Deputatlıq iddiaları püskürən bir çoxları - yazdıqları status və plakatlarda rüsvayçı qrammatik səhvlər...

***Buludxan Xəlilov:** "Öz sahəsində heç bir uğur qazana bilməyən insanlar gedib parlamentdə nə iş görəsidir ki?"*

**Milli Məclisin buraxılması saysız insanın növbəti parlament seçkilərinə qatılmaq istəyinin güclənməsinə səbəb olub. Bu gün bir sıra insanlar sosial şəbəkələr vasitəsilə deputatlığa namizədliyini irəli sürdüklərini bəyan edirlər.**




*"...cümlələri düzgün şəkildə qura bilməyənlərin mənasız bir iddiada olması onların səviyyəsindən xəbər verir"*

Deputatlıqla bağlı iddialar ortaya qoyan şəxslərin, sosial şəbəkə istifadəçilərinin həm paylaşdıqları statuslarda, həm də təqdim etdikləri bioqrafik məlumatlarda, tərtib etdikləri plakatlarda kifayət qədər ciddi qrammatik səhvə yol verilir. Özlərini gələcək deputat kimi görən şəxslərin yazarkən ciddi qrammatik səhvlərə yol verməsi, cümlə quruluşlarındakı qüsurlar sıx-sıx müşahidə edilir.

Bəzi şair və yazıçıların, jurnalistlərin, QHT nümayəndələrinin, eləcə də sadə insanların yazdıqları statuslarda kifayət qədər diqqətçəkən qrammatik qüsur var.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, bu, namizədlərin çoxunun təsadüfi adamlar olduğundan irəli gəlir. B.Xəlilovun sözlərinə görə, savadsız, dilin qayda-qanunlarını bilməyən insanların deputatlıq iddiasına düşməsinin özü gülüncdür. Müsahibimiz hesab edir ki, deputatlığa namizədliyini verən adamın mükəmməl savadı, biliyi olmalıdır və həmin şəxslər ana dilimizi gözəl, səlist bilməlidirlər. "Olduqca aktual bir məsələni gündəmə gətirmisiniz. Ola bilsin, bu, kimlərinsə diqqətindən yayınır, buna əhəmiyyətsiz bir hal kimi baxırlar, amma belə deyil, bu tamamilə ciddi bir qüsurdur. Mən özüm də bu halı sıx-sıx müşahidə edirəm. Bir sosial şəbəkə istifadəçisi kimi açıq şəkildə görürəm ki, Milli Məclisin buraxılması bir çox Azərbaycan vətəndaşının öz namizədliyini irəli sürməsinə səbəb olub. Burada da xoşagəlməz bir sıra hallar var ki, onun qeyd edilməsi vacibdir. İnsanların bir çoxu öz məsuliyyətini dərk etmədən özlərini deputat kimi Milli Məclisdə görmək iddiasındadır. Bu iddianı da ortaya qoymaq, deputat olmaq görüntüsü yaratmaq üçün sosial şəbəkələrdən geniş şəkildə istifadə edirlər və namizədliklərini irəli sürürlər. Diqqətçəkən məsələlərdən biri odur ki, bu adamların namizədliyini ya özləri irəli sürür, ya da ətrafında olan müəyyən qruplar sosial şəbəkələrdə "siz filankəsi deputat görmək istəyərdinizmi" deyə sorğu verirlər. Və sorğulara müxtəlif münasibətlər var. Doğru qeyd edirsiniz həm o sorğuların özündə ciddi qrammatik səhvlər var, həm bəzi namizədlərin yazdıqları statuslarda, həm də onların təqdim etdikləri bioqrafiyaların yazılışında ciddi qrammatik nöqsanlar diqqətdən yayınmır. Azərbaycan dilinin qayda-qanunlarına riayət edilmir, cümlə quruluşlarında, eləcə də digər məsələlərdə kifayət qədər qrammatik səhvə yol verilir. Azərbaycan dilinin yazı qaydalarına əməl etməyi bacarmayan, dilimizi normal şəkildə bilməyən, ondan istifadə edərkən qüsurlara yol verən bir çox insan deputat olmaq iddiasındadır. Sosial şəbəkələr vasitəsilə namizədliyini irəli sürənlər arasında müxtəlif təbəqələrin nümayəndələri var. Bu da xoşagələn hal deyil. Öz sahəsində heç bir uğur qazana bilməyən insanlar gedib parlamentdə nə iş görəsidir ki? Yazdıqları status və bioqrafiyalarında savadsız qrammatik səhvə yol verənlərin, dilin qayda-qanunlarından xəbərsiz olanların, cümlələri düzgün şəkildə qura bilməyənlərin mənasız bir iddiada olması onların səviyyəsindən xəbər verir".

B.Xəlilov hesab edir ki, sosial şəbəkə vasitəsilə iddialarını ortaya qoyanlar sırasında şou-biznesçilərin və aktyorların, bəzi şairlərin olması da müsbət hal deyil. Onun sözlərinə görə, sosial şəbəkələrin verdiyi imkanlardan yararlanaraq öz namizədliklərini irəli sürənlər burada ağızlarına gələnləri də yazırlar. "Çox təəssüf edirəm ki, sosial şəbəkələr vasitəsilə öz namizədliyini irəli sürənlər sırasında şairlər, şou-biznesçilər, aktyorlar da var. Onlar hamısı özünü deputat görmək istəyir. Halbuki, onların da yazdıqları statuslarda kifayət qədər qrammatik səhv var. Bu adamların deputat seçilməsi Azərbaycana heç bir fayda verməyəcək. Yəni deputat olmaq istəyən şəxsin vicdanı, savadı, nüfuzu olmalıdır, Azərbaycan dövlətçiliyi ilə nəfəs almalıdır, ana dilimizi mükəmməl bilməlidir. Onların bir çoxu hətta Azərbaycan dilini mükəmməl bilmir. Sosial şəbəkələr vasitəsilə öz namizədliyini irəli sürən insanlar, o cümlədən, aktyorlar, aktrisalar, müğənnilər Azərbaycan dilində düzgün yazılış qaydasını bilmirsə, qrammatik qaydalara əməl etmirlərsə, onlar parlamentdə hansı işlər görəcəklər? Başqa bir tərəfdən də parlament müğənnilərdən, aktyorlardan ibarət olmamalıdır. Yaxşı fikir verin, ölkə televiziyaları və radioları, bəzi qəzetlər, saytlar şou-biznesçilərin əlində qaldığı üçün, Azərbaycan cəmiyyətini pis günə saldı, tamaşaçıların, dinləyicilərin zövqünü çox aşağı saldı, cəmiyyətdə azərbaycançılıq ideologiyasının Azərbaycana xidmət etməsinin qarşısını kəsdi. İndi bununla kifayətlənməyib Milli Məclisdə də özlərinə yer tutmaq istəyirlər. Azərbaycan dilini bilməyənlər, eyni zamanda, o şounu Milli Məclisə də gətirmək istəyirlər".

B.Xəlilov hesab edir ki, seçicilər, birmənalı olaraq, şou müğənnilərini, bəzi aktyor və aktrisaları deputat seçməkdən imtina etməlidirlər. Onun sözlərinə görə, Milli Məclisdə savadlı, bilikli hüquqşünaslar, siyasətçilər, ictimai-siyasi xadimlər, iqtisadçılar, dilçilər, elm və mədəniyyət xadimləri təmsil olunmalıdırlar ki, parlament faydalı fəaliyyət göstərsin.

***İradə SARIYEVA***

# Kredit borcuna görə banklar girov əmlakı məhkəməsiz müsadirə edəcək?..

## *Vüqar Bayramov: "Kredit götürən şəxslərin hüquqlarının qorunması mexanizminin təkmilləşdirilməsinə ehtiyac var"*

**Azərbaycanın bank sektorunda kredit-girov münasibətləri üzrə mühüm yenilik gözlənir. Belə ki, banka girov qoyulan əmlaklar kreditin qaytarılmadığı təqdirdə avtomatik olaraq bankın sərəncamına keçəcək. Bu barədə Ədliyyə Nazirliyinin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə media nümayəndələrinə açıqlamasında qeyd edib.**




O bildirib ki, bu proses notariuslarda icra qeydləri ilə bağlı sadələşdirmənin sayəsində baş tutacaq: "Biz banklar üçün yeni imkanları müzakirə edirik. Qanunvericilikdə artıq dəyişikliklər olunub, ipotekaya məhkəməsiz yönəltmə üzərində banklarla bir yerdə işləyirik. Çünki banklar tərəfindən də çoxlu iş görülməlidir. Bunlar banklarla bizim aramızda sırf texniki məsələlərdir, o da başa çatmaq üzrədir. Bu sahədə gündəlik yüzlərlə müraciət var".

Qeyd edək ki, əvvəllər kredit götürən şəxs borcu qaytara bilmədiyi halda girov kimi qoyduğu əmlak məhkəmənin qərarından sonra bankın sərəncamına keçirdi. Ancaq indi girov qoyulan əmlak məhkəmə olmadan belə bankın ixtiyarına keçəcək. Ekspertlər bildirirlər ki, banklar uzun zamandır bu qərarın verilməsini gözləyirdilər. Banklar krediti vaxtında ödəyə bilməyən şəxsin əmlakını sərəncamına keçirib, dərhal onu satışa çıxaracaqlar. Bu qərar mütəxəssislərlə yanaşı, vətəndaşları da narahat edir.

İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, girov əmlakın məhkəməsiz bankın sərəncamına keçməsi məsələsi əvvəlki dövrlərdə də müzakirə edilən mövzulardan biri olub: "Praktiki olaraq, məsələnin reallaşması üçün bunun həm də kredit müqaviləsində əks olunmasına ehtiyac var. Kredit qaytarılmırsa, girov əmlakın avtomatik olaraq bankın sərəncamına keçməsi məsələsinin, birmənalı şəkildə, kredit müqaviləsində göstərilməsinə və qeyd olunmasına ehtiyac var. Razılıq əldə olunursa, əmlakın satışa yönəldilməsi ilə bağlı qərar qəbul edilə bilər. Bu məsələdə bankları başa düşmək olar. Kredit qaytarılmayan zaman girovun satılıb xərcin ödənilməsi zaman alır, bir sıra hallarda hətta bu, 3 ildən artıq vaxt aparır. Məhkəmə prosedurunun sadələşdirilməsinə ehtiyac var".

*"Kredit qaytarılmadığı təqdirdə girov qoyulan əmlak avtomatik olaraq bankın sərəncamına keçərsə..."*

Həmsöhbətimiz onu da vurğuladı ki, bu məsələdə vətəndaşların hüquqlarının qorunmasına çalışmaq lazımdır: "Təklif edirik ki, yeni prosedur tətbiq olunarsa, birmənalı şəkildə, müqavilədə vətəndaş da öhdəlik götürməlidir ki, krediti qaytara bilmirsə, girovun birbaşa satışına razılıq verir. Öncədən vətəndaşın razılığının alınmasına ehtiyac var. Bu zaman kredit götürən vətəndaş daha məsuliyyətli olacaq. Krediti götürən zaman qərarına daha ciddi, daha məsuliyyətli yanaşacaq. Çünki problemlərdən biri ondan ibarətdir ki, vətəndaşlar bəzi hallarda öz ödəmə imkanlarını düzgün qiymətləndirmədən və ya qiymətləndirmək istəmədən borc öhdəliyinə girirlər. Nəticədə krediti qaytarmaqda çətinlik çəkirlər. Bu baxımdan bu prosedur həm də kredit müqavilələrinin təkmilləşdirilməsinə və dəyişdirilməsinə gətirib çıxarmalıdır. Kredit müqavilələrinin hazırlanmasına və təklif olunmasına ehtiyac var. Yəni vətəndaş öncədən kredit müqaviləsində belə bir öhdəliyin olması ilə bağlı məlumatlı olmalı və bundan sonra kredit götürməklə bağlı qərar verə bilər. Yəni kredit götürmək onun üçün sərfəlidir, risqlidir və ya cəlbedicidir".

İqtisadçının fikrincə, məhkəmə prosedurunun sadələşdirilməsinə, asanlaşdırılmasına ehtiyac var: "Digər tərəfdən, kredit götürən şəxslərin hüquqlarının qorunması mexanizminin təkmilləşdirilməsinə ehtiyac var. Eyni zamanda, banklar üçün izafi tranzaksiya xərclərinin azaldılmasına ehtiyac var. Çünki bankın heç də funksiyası əmlak satışı ilə məşğul olmaq deyil. Ona görə də mexanizmin daha yaxşı olması üçün kredit müqavilələrinin də təkmilləşdirilməsinə ehtiyac var. Kredit qaytarılmadığı təqdirdə girov qoyulan əmlak avtomatik olaraq bankın sərəncamına keçərsə, əmlakın birbaşa satışı ilə bağlı öhdəlik də kredit müqaviləsində öncədən əks olunmalıdır. Bu zaman vətəndaş bu öhdəliyi üzərinə götürüb-götürməməklə bağlı özü birbaşa qərar verə bilər".

***Günel CƏLİLOVA***

# 10-200 manatlıq əskinaslarla bağlı terminallarda yaranmış problem...

**Azərbaycan Mərkəzi Bankı tərəfindən dövriyyəyə buraxılan 10 və 200 manatlıq əskinasların bir çox terminalda qəbul edilməsində hələ də problemlər yaranır. Şəhərin müxtəlif ərazilərində quraşdırılan ödəmə terminalları yeni dövriyyəyə buraxılan əskinasları qəbul etmirlər.**




*Azərbaycan Mərkəzi Bankı: "Ölkə ərazisində istismar olunan nağd ödəniş avadanlıqları müxtəlif kredit təşkilatları, poçt rabitəsinin milli operatoru və qeyri-bank ödəniş təşkilatlarına məxsusdur, bu avadanlıqlara onlar tərəfindən xidmət olunduğundan..."*

*Natiq Cəfərli: "Ödəmə terminallarının proqramında yenilənmə aparılmadığı üçün, aparatlar yeni dövriyyəyə buraxılan pul əskinaslarını qəbul etmirlər"*

Son günlər sosial şəbəkə istifadəçiləri tez-tez bu halla rastlaşdıqlarını qeyd edirlər. Doğrudan da şəhərin istənilən ərazisində quraşdırılan terminalların qarşısında uzun-uzadı növbə müşahidə olunur.

Qeyd edək ki, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Mərkəzi Bankın buraxdığı pul nişanları, o cümlədən, yubiley və xatirə pul nişanları Azərbaycan Respublikasının bütün ərazisində nominal dəyərləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı hökmən qəbul edilməlidir.

Azərbaycan Mərkəzi Bankından "Bakı-Xəbər"ə verilən məlumata görə, ölkə ərazisində istismar olunan nağd ödəniş avadanlıqları müxtəlif kredit təşkilatları, poçt rabitəsinin milli operatoru və qeyri-bank ödəniş təşkilatlarına məxsusdur və bu avadanlıqlara onlar tərəfindən xidmət olunduğundan, adaptasiya prosesləri həmin təşkilatlar tərəfindən həyata keçirilir: "Bununla əlaqədar Azərbaycan Mərkəzi Bankı tərəfindən müvafiq nağd pul avadanlıqlarının 200 manatlıq və yenilənmiş 10 manatlıq pul nişanlarına adaptasiyası ilə bağlı ölkə ərazisində fəaliyyət göstərən bütün kredit təşkilatlarına, poçt rabitəsinin milli operatoruna, eləcə də qeyri-bank ödəniş təşkilatlarına rəsmi tapşırıqlar verilib. Eləcə də nağd ödəniş avadanlıqlarında milli pul nişanlarının qəbulu, onların 200 və yeni 10 manatlıq pul nişanlarına adaptasiyası barədə ictimaiyyət məlumatlandırılıb".

İqtisadçı-ekspert Natiq Cəfərli bizimlə söhbətində qeyd etdi ki, ödəmə terminallarının proqramında yenilənmə olmalı idi: "Terminallar yeni pul əskinaslarını tanımırlar. Bu səbəbdən də terminallarla məşğul olan şirkətlər proqram təminatının yenilənməsi ilə bağlı iş görməli idilər. Terminallarda yenilənmə aparılmadığı üçün, onlar yeni dövriyyəyə buraxılan pul vahidini qəbul etmirlər.

**Bu səbəbdən də son günlər ödəmə terminallarının qarşısında uzun-uzadı növbələr yaranır. Proqram təminatının yenilənməsi çətin proses deyil. Sadəcə, öncədən bu qərar verilməyib deyə, bunun əziyyətini sadə vətəndaşlar çəkir".**

***Günel CƏLİLOVA***

# Övladlığagötürmənin yeni və köhnə qaydaları arasında fərqlərlə bağlı müzakirəyə ekspertlər də qoşuldu...

## *Kəmalə Ağazadə: "Bu işin vahid mərkəzdən idarə edilməsi bu sahədə şəffaflığın təmin olunmasına səbəb olacaq"*

**Azərbaycanda övladlığagötürmə qaydalarının dəyişdirilməsi barədə uzun illərdir müzakirələr aparılırdı. Bu sahədə ciddi problemlər, bürokratik əngəllər, süründürməçilik, eləcə də illərlə növbə gözləmək kimi neqativ hallar mövcud idi.**

Bir sıra hallarda övladlığa verilmə növbədənkənar həyata keçirilir, çox zaman burada uşaq və körpələr evlərinin rəhbərləri xüsusi rol oynayırdılar. Bildiyimiz kimi, bu sahədə ciddi neqativ halların olduğu, eyni zamanda, körpələrin xarici və yerli vətəndaşlara satıldığı haqqında məlumatlar, söz-söhbətlər yayılırdı. Hətta bu məlumatlar mətbuatın gündəmində də yer alırdı. İndi isə övladlığagötürmə qaydaları tamamilə yeni üsul və formalarla həyata keçirilir.

Bildiyimiz kimi, dekabrın 10-da Prezident İlham Əliyev idarəetmənin təkmilləşdirilməsi ilə bağlı fərman imzalayıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemində "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" alt sistem yaradılıb. Övladlığagötürmə proseduru ilə bağlı yeni qaydaların cəmiyyət vasitəsilə geniş müzakirəyə çıxarılması vacib bir məsələ kimi qarşıda durur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, Azərbaycanda övladlığagötürmə ilə bağlı qaydalar layihəsi ictimai müzakirəyə çıxarılıb. Bildirilib ki, nazirlik tərəfindən hazırlanmış "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi Qaydaları" layihəsi ictimai müzakirənin təmin edilməsi məqsədilə nazirliyin sosial.gov.az saytında yerləşdirilib. Vətəndaş cəmiyyəti institutları, mütəxəssis və ekspertlər, ayrı-ayrı vətəndaşlar qeyd edilən linkə daxil olaraq layihə ilə tanış ola, rəy, irad və təkliflərini göndərə bilərlər.

Qeyd edək ki, bu sahədə əvvəlki qaydalarla yeni hazırlanan qaydalar arasında çox ciddi fərqlər var. Ən böyük fərq isə bu prosesin vahid mərkəzdən idarə olunmasıdır.



*"Artıq DOST Agentliyinin əməkdaşları uşaq evlərində və digər müəssisələrdə..."*

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadənin sözlərinə görə, övladlığagötürmə ilə bağlı prosedur qaydalarının dəyişdirilməsi bu sahəyə vahid mərkəzdən nəzarət edilməsinə və s. səbəb olacaq. Övladlığagötürmə qaydalarının ictimai müzakirəyə çıxarılmasının böyük əhəmiyyət daşıdığını deyən K.Ağazadənin sözlərinə görə, burada bir sıra yeniliklər olacaq. "Övladlığagötürmə qaydaları keçmişdə necə olub, indi necə olacaq? Mən sizə buradakı birinci fərqi deyim. Övladlığa veriləcək uşaqla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində xüsusi portal yaradılıb. Bu artıq həm yenilikdir, həm də təqdirəlayiq bir haldır. Yeni yaradılan portalda övladlığa verilən uşağın yaşından, cinsindən, hansı uşaq müəssisəsində olmasından tutmuş, digər məlumatlara qədər hər şey əks olunur. Övladlığa uşaq götürmək istəyənlərin sənədlərinin qeydiyyatı həyata keçirilir, onlar haqqında bütün məlumatlar da portalda yerləşdirilir. Əvvəlcə isə belə deyildi, bu sahədə pərakəndəlik vardı. Köhnə qaydalara görə, 3 yaşına qədər olan uşaqların övladlığa verilmə səlahiyyətləri Səhiyyə Nazirliyində, 3 yaşından yuxarı olan uşaqlarınkı isə Təhsil Nazirliyində idi. Uşaqları xarici vətəndaşlara övladlığa verilməsi isə Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin səlahiyyətinə daxil idi. Amma indi bu sahədə qaydalar dəyişdirilir, övladlığagötürmə məsələsində pərakəndəlik aradan qaldırılır və bu proses vahid mərkəzdən həyata keçiriləcək. Bu olduqca mükəmməl bir qayda olacaq".

K.Ağazadənin sözlərinə görə, rəhbərlik etdiyi təşkilata gün ərzində ən azı 15-20 nəfər övladlığagötürmə ilə bağlı müraciət edir. Bu insanların övladlığagötürmə qaydalarını bilmədiyini və onların aidiyyəti quruma yönləndirildiyini deyən K.Ağazadə hesab edir ki, yeni qaydalar övladlığagötürmə sahəsindəki problemlərin aradan qaldırılmasına müsbət təsir edəcək. "Neçə dəfə icra hakimiyyətlərinin övladlığagötürmə komissiyasına gedənlər olub və onlar da həmin şəxslərə müəyyən çətinliklər yaradıblar. Cəmiyyətdə uşaqgötürmə prosesinin nə qədər ağır olduğu və burada kimlərinsə uşaqgötürməni alver predmetinə çevirməsi illərdir gündəmdədir. Ona görə də övladlığagötürmə prosedurlarının, qaydalarının ictimai müzakirəyə verilməsi çox müsbət haldır. Uşaq müəssisələrinin heç birinin övladlığa uşaq vermək səlahiyyəti yoxdur, bu proses məhkəmə qərarı ilə reallaşır. Uşaq müəssisəsi uşağın qəyyumu olaraq məhkəməyə çıxaraq "mən etiraz etmirəm" deyir. Yəni uşaq müəssisələri övladlığa uşaq verə bilməz. Artıq DOST Agentliyinin əməkdaşları uşaq evlərində və digər müəssisələrdə olan övladlığa verilən uşaqların siyahısını hazırlayırlar. DOST Agentliiyinin əməkdaşları bizim təşkilata da gəldilər və övladlığa veriləcək uşaqların siyahısını götürdülər, onları qeydiyyata aldılar.

**Mənim bu işə müdaxilə etmək səlahiyyətim yoxdur. Övladlığagötürmənin yeni qaydalarının hazırlanması çox müsbətdir, bu işin vahid mərkəzdən idarə edilməsi bu sahədə şəffaflığın təmin olunmasına səbəb olacaq, uşaqların satılması məsələsi aradan qaldırılacaq. İnsanlar övladlığa uşaq götürə bilmirdilər, çünki burada böyük vəsaitlərdən söhbət gedirdi, amma indi elə olmayacaq, bu sahədə tam şəffaflıq təmin olunacaq" - deyə K.Ağazadə qeyd etdi.**

***İradə SARIYEVA***

**Əhalisi kifayət qədər olan yaşayış məntəqələrində məktəb, uşaq bağçası və xəstəxana kimi gərəkli təsisatların olması olduqca vacibdir. Çünki bu təsisatlar olmadan inkişafa nail olmaq mümkün deyil. Ölkəmizin hər yerində, o cümlədən, ucqar kəndlərdə belə müasir tipli məktəblər inşa edilərək şagirdlərin ixtiyarına verildiyi halda, Bakının lap yaxınlığında yerləşən bəzi yaşayış massivlərində hələ də orta məktəb yoxdur.**

# 7 minlik Gülçülük qəsəbəsində məktəb yoxdur - hər şagird ayı 30 manata "RAF"la qonşu məktəblərə gedir



*Mürvət Ağakişiyev: "Maddi baxımdan bu bizim üçün çox çətindir"*

*Məlahət Mürşüdlü: "Təhsil Nazirliyi araşdırma aparmalı və sözügedən ərazilərdə məktəblər inşa etməlidir"*

Bu səbəbdən həmin ərazilərdə yaşayan sakinlərin övladları yaşayış yerlərindən uzaqda yerləşən məktəblərə gedirlər.

Belə ərazilərdən biri də Sabunçu rayonu, Maştağa qəsəbəsi, Gülçülük adlanan ərazidir. Ərazidə yaşayanların sayı son illər əhəmiyyətli dərəcədə artıb. Gülcülük adlanan yaşayış massivində təxminən 7 min nəfərədək əhali yaşayır. Ancaq məktəb sarıdan sakinlər çox ciddi çətinliklərlə üzləşirlər. Məsələ ondadır ki, Gülçülük yaşayış massivində məktəb yoxdur. Bu səbəbdən uşaqlar digər məktəblərə, əsasən də Daş karxanası massivində yerləşən 22 saylı məktəbə getmək məcburiyyətində qalırlar. Ancaq problem ondadır ki, sözügedən məktəb Gülçülüyə uzaq məsafədə yerləşir. Ona görə də uşaqlr nəqliyyat vasitəsilə həmin məktəbə getməli olurlar. Sakinlərin dediyinə görə, bu da onlara baha başa gəlir. Problem ondadır ki, bir uşağı nəqliyyat vasitəsilə 22 saylı məktəbə aparmaq ay ərzində 30 manata başa gəlir. Evdən 3 uşaq məktəbə gedirsə, o zaman bunun üçün valideyn 90 manat ödəniş etməlidir. Ortada digər xərclərin də olduğunu nəzərə alsaq, hər valideynin buna imkanı çatmır. Özü də məktəbə uşaqlar köhnə sınıq-salxaq "Qazel" markalı avtomobillərlə aparılır. Başqa bir tərəfdən, Gülçülükdə məktəbin olmaması üzündən 22 saylı məktəb çox yüklənir və sıxlıq artır. Siniflərdə uşaqların sayının çox olması tədrisin keyfiyyətinə də mənfi təsir edir.

Gülçülük sakini Mürvət Ağakişiyevin sözlərinə görə, dəfələrlə sakinlər məktəbin olmaması barədə əlaqədar qurumlara müraciət ediblər: "Ancaq ortada nəticə yoxdur. Burada yaşayan əhalinin də sayı artır. Maddi baxımdan bu bizim üçün çox çətindir. Nəzərə almaq lazımdır ki, Gülçülükdə daha çox kasıb insan yaşayır. Əsasən muzdlu əmək fəaliyyəti ilə məşğul olurlar. Maddi baxımdan bu onlara baha başa gəlir".

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən təhsil eksperti Məlahət Mürşüdlünün sözlərinə görə, bu təkcə Bakıətrafı qəsəbələr üçün xarakterik olan problem deyil: "Digər yerlərdə də bənzər problemlər var. Bakının yaxın ətrafında da bənzər problemlər mövcuddur. Görürsən ki, çoxmərtəbəli binalar ucaldılıb, amma ərazidə məktəb və bağça yoxdur. Bu, planlaşmanın qüsurudur. Sovet dönəmində belə massivlər yaradılanda paralel olaraq məktəblər, səhiyyə ocaqları, bağçalar tikilirdi. Ancaq təəssüflər olsun ki, Bakıətrafı ərazilərdə son illər salınan yaşayış massivlərində bütün bunlar nəzərə alınmır. Ona görə də Təhsil Nazirliyi araşdırma aparmalı və sözügedən ərazilərdə məktəblər inşa etməlidir. Massivlər salınarkən buraxılan səhvlər düzəldilməlidir. Yoxsa, sakinlər əziyyət çəkməkdə davam edəcəklər. Vaxtında bunlar nəzərə alınsaydı, Bakıda bu dərəcədə tıxac olmazdı. Tıxacın bir səbəbi də məktəblərin sayının yetərincə olmamasıdır".

***Vidadi ORDAHALLI***

---

**Səhnənin özünün xüsusi tələbləri var ki, bir çoxu bu tələbi yalnız birtərəfli anlayıb qəbul edir. Bəziləri elə anlayırlar ki, sənətdə uğur qazanmağın yolu, ilk növbədə, adını dəyişməkdən, yaxud bər-bəzəkli təxəllüslər götürməkdən keçir. Xeyr, belə deyil.**

# Səhnəyə çıxandan sonra əsl ad-soyadını təxəllüslə əvəzləyən şou adamları - kimlər bu təxəllüsü niyə götürüblər...

*İlhamə Hacıyeva: "...başqa həmkarlarından fərqlənmək cəhdləridir"*



Dünya sənət aləmində, ədəbiyyatda, musiqidə kifayət qədər öz həqiqi adından imtina edənlər, təxəllüsləri ilə tanınanlar var. Türkiyədə, İranda, Avropanın özündə səhnə adamları var ki, onların həqiqi adlarını çoxları bilmir, hamı onları təxəllüsləri ilə tanıyır. Azərbaycanda da xeyli sayda müğənni öz adı və soyadı ilə deyil, təxəllüsü ilə tanınır.

Mətbuat belə sənətçilərin qısa siyahısını hazırlayıb. Məsələn, öz adı Məsumə Məmmədova olan müğənni Damla adı ilə tanınır. Xalq artisti Röya Ayxan - Röyalə Nəcəfova, müğənni Nura Suri - Aynurə Qəzənfər qızı, Xalq artisti Azərin - Anaxanım Tağıyeva, müğənni Niyam Salami - Niyaməddin Salami, radioaparıcı Çiçək - Şəhla Vakkas, müğənni Əlikram Bayramov - Əlikərəm Urşan oğlu, aparıcı Nanə Ağamalıyeva - Nənəxanım Ağamalıyeva, müğənni Xatun - Nərgiz Əliyeva, reper Qurd - Fərid Eminov, peper, yazıçı Qaraqan - Elxan Zeynallı, prodüsser Tolik - Tarix Əliyev, müğənni, cazmen Cavan Zeynallı - Cavanşir Zeynallı, iş qadını, müğənni Ruhi - Ruhiyyə Əliyeva kimi tanınır.

Bakı Dövlət Universitetinin filologiya fakültəsinin elmi işçisi, tanınmış dilçimütəxəssis İlhamə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, müğənnilərin, səhnə adamlarının öz ad-soyadları ilə deyil, təxəllüsləri ilə tanınması təcrübəsi yeni deyil. İ.Hacıyevanın sözlərinə görə, ünlü Azərbaycan əsilli İran müğənnisi Ququşun əsl adı Faiqə Atəşi, populyar Türkiyə müğənnisi Seda Sayanın isə rəsmi adı və soyadı Aysel Gürsaçerdir. Ajda Pekkanın da, əslində, Ayşe Ajda Pekkan olduğunu deyən İ.Hacıyevanın sözlərinə görə, Azərbaycanın böyük sənətkarları Xan Şuşinski və Bülbül də səhnəyə öz həqiqi ad və soyadları ilə çıxmayıblar.

*"Əsl ad və soyadları ilə deyil, təxəllüsləri ilə tanınan şou müğənnilərinə bu təxəllüsü xalq verməyib, bunu onların özləri götürüblər"*

Ekspertin sözlərinə görə, müasir müğənnilərdən, şou-biznesçilərdən fərqli olaraq, İsfəndiyar Cavanşirova Xan, Murtuza Məmmədova isə Bülbül təxəllüsünü xalq vermişdi. "Bilirsiniz ki, səhnə adamları məşhurluğa gedən yolu müxtəlif cür anlayırlar. Bəziləri bunu adlarını gizlədib təxəllüsləri ilə gündəmə gəlməkdə, bəziləri isə özlərinə qondarma ləqəblər qoymaqda görürlər. Hesab edirəm ki, bəzi şou müğənnilərinin öz həqiqi ad və soyadları ilə tanınmamağının səbəbi başqa həmkarlarından fərqlənmək cəhdləridir. Onlar yalnız həmkarlarından fərqlənmək istəmirlər, həm də istəyirlər ki, seçdikləri təxəllüs yaddaqalan olsun. Bu anlaşılandır. Əsl ad və soyadları ilə deyil, təxəllüsləri ilə tanınan şou müğənnilərinə bu təxəllüsü xalq verməyib, bunu onların özləri götürüblər, amma bizim dahi sənətkarlarımız Xan Şuşinski və Bülbülə bu təxəllüsü xalq vermişdi, onları xalq belə adlandırmışdı.

Bəzi şou müğənniləri valideynlərinin onlara verdikləri adları bəyənmədiyi üçün, bəziləri isə adının daha sadə səslənməsinə görə özlərinə təxəllüs götürüblər".

İ.Hacıyeva, həmçinin, qeyd etdi ki, problem onların təxəllüslə tanınmaqları ilə bağlı deyil, əsas problem bu şou müğənnilərinin Azərbaycan dilinin qayda və qanunlarını pozmazı, özlərini rus adları ilə təqdim etməsidir. O qeyd etdi ki, məsələn, Gülnarə, Gülarə adlı bir ifaçı özünü "Gülya", Elnarə "Elya" və s. adlandırırlar. Eyni zamanda, bəzi ad və soyadların tələffüzündə də şou müğənnilərinin rus aksentindən istifadə etdiyini deyən İ.Hacıyevanın sözlərinə görə, dilimizə, danışıq qaydalarımıza yad təzahürlərin gətirilməsi qəbuledilən deyil.

***İradə SARIYEVA***

№ 219 (4117) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

10 DEKABR 2019-cu il

www.baki-xeber.com


# Qrenlandiyadakı buzlar sürәtlә әriyir - Dünya suyun altında qala bilәr

**Qlobal isinmәnin Yer kürәsindә suyun sәviyyәsini artırdığı gerçәyi elm adamlarının kosmosdan çәkdiyi foto vә analizlәrlә yenidәn göz önünә sәrilib.**

"Teleqraf.com" bildirir ki, "Proceedings of the National Academy of Sciences" (PNAS) jurnalında dәrc olunan araşdırma Qrenlandiya buzlaqlarının әrimәsinin qorxunc sәviyyәyә çatdığını ortaya çıxarıb. Elm adamları Qrenlandiyadakı buzlaqlarda nәhәng çatların vә sızıntıların yarandığını açıqlayıb. Buz adasında baş verәnlәrin dünya okeanlarında suyun sәviyyәsinin kәskin yüksәlmәsinә sәbәb olacağı bildirilib. Stor buzlağının 2018-ci ilin iyul ayında qırıldığı, 5 saat әrzindә "dünyanın әn hündür şәlalәsi"ni әmәlә gәtirdiyi vә buzlaqların sürәtlә adadan ayrılmağa başladığı da diqqәtә çatdırılıb. Buzlaqların yarıqları arasında göllәrin әmәlә gәldiyini deyәn Kembric Universitetinin alimi Tomas Çudli bildirib: "028 adlanan göl keçәn il iyulun 7-dә әmәlә gәldi vә bu müddәt әrzindә böyük hәcmdә su dәnizә töküldü".



## Elan

Dәmirova Xanım Nizami qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

"Flame" MMC-yә mәxsus, Göyçay rayonu, Mirzә Hüseynli kәndindә yerlәşәn torpaq sahәlәrinә (0.78 ha; 0.71 ha; 0.45 ha; 0.05 ha; 1.15 ha; 1.21 ha; 0.28 ha; 1.58 ha; 0.13 ha; 0.94 ha; 1.31 ha; 1.25 ha; 1.15 ha; 0.05 ha; 1.15 ha; 0.05 ha; 0.1 ha; 0.45 ha; 0.7 ha; 0.78 ha; 1.21 ha; 0.28 ha; 1.58 ha; 0.13 ha; 0.94 ha; 1.31 ha; 1.25 ha) verilmiş çıxarışlar vә texniki pasportlar itdiyi üçün etibarsız sayılır.

Quliyeva Atlas Yәhya qızının adına, Abşeron rayonu, Mehdiabad qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (seriya RX №0620168) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Şәrәf Abış qızının adına, Bakı şәhәri, Xәtai rayonu, Qәdir Mәmmәdov küçәsi, ev 6, mәnzil 20 ünvanının çıxarışı vә texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Abdulqalimov Zaur Abdulqalim oğluna AZƏRİŞIQ ASC tәrәfindәn verilmiş xidmәti vәsiqә itdiyi üçün etibarsız sayılır.

Fәrzәlibәyova Əsmәr Mustafa qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Maya Elçin qızına Azәrbaycan Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Lebedov Yuriy Borisoviçә mәxsus Azәrbaycan Respublikası müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Quliyeva Ramilә Qismәt qızına mәxsus, Beylәqan rayonu, Şәrq qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş torpağa mülkiyyәt hüququna dair dövlәt aktı (JN-103, kod.60714018) itdiyi üçün etibarsız sayılır.

Hәsәnova (Hәsәnzadә) Yeganә Ramiz qızının adına, Xәzәr rayonu, Buzovna qәsәbәsindә yerlәşәn torpaq sahәsinә, Əzizbәyov Rayon Xalq Deputatları Soveti tәrәfindәn 19.09.1988-ci il tarixdә verilmiş 13 saylı qәrar itdiyi üçün etibarsız sayılır.

"Flame" MMC-yә mәxsus, Göyçay rayonu, Potu kәndindә yerlәşәn torpaq sahәlәrinә (1.4 ha, 1.8 ha, 10.6 ha) verilmiş çıxarışlar vә texniki pasportlar itdiyi üçün etibarsız sayılır.

## "Azercell" "Ən yaxşı stend dizaynına görә" sertifikatı ilә tәltif edildi

**"Azercell Telekom" 2019-cu ilin dekabr ayının 3-dәn 6-na kimi Bakı Ekspo Mәrkәzindә keçirilmiş "Bakutel"- Azәrbaycan Beynәlxalq Telekommunikasiya, İnnovasiya vә Yüksәk Texnologiyalar Sәrgisinin 25-ci yubileyindә baş sponsor vә innovativ xidmәtlәrin tәqdimatçısı qismindә iştirak edib.**

"Bakutel 2019" sәrgisindә bütün ziyarәtçilәr tәrәfindәn böyük maraqla qarşılanan şirkәt stendi tәşkilatçılar tәrәfindәn "Ən yaxşı stend dizaynına görә" xüsusi sertifikatla tәltif edilib.

"Azercell", hәr il olduğu kimi, bu il dә mobil rabitә vә telekommunikasiya sahәsinin әn innovativ layihәlәrini öz stendindә sәrgilәyib. 6 000-dәn çox iştirakçı tәrәfindәn ziyarәt edilmiş "Azercell"in әnәnәvi stendindә innovativ, hәm biznes, hәm dә asudә vaxt üçün faydalı yeniliklәr tәqdim edib. Xatırladaq ki, "Bakutel 2019" sәrgisinin keçirildiyi dörd gün әrzindә "Azercell" bütün sәrgi iştirakçılarını stenddәki mobil telefon vә böyük ekran üzәrindәn 5G şәbәkәsinin tәmin etdiyi yüksәk sürәtli internetin üstünlüyünün şahidi olmaqla әn son nәsl mobil texnologiyanın real sürәtini hiss etmәyә imkan yaratdı. Bundan әlavә, 5G şәbәkәsi üzәrindәn 5G Multisensor, 5G Konfrans, 5G Oyunlar vә digәr rәqәmsal hәllәr yerli vә beynәlxalq qonaqların test rejimindә istifadәsi üçün tәqdim edildi.

Ötәn ay Bakının Fәvvarәlәr Meydanında ilk dәfә 5G sürәt sınağını hәyata keçirәn "Azercell" şirkәti hazırda 5G, Süni İntellekt (Aİ) vә Əşyaların İnterneti (İoT) sahәsindәki әn son texnoloji nailiyyәtlәri yerli bazara gәtirmәklә, şirkәtin mәhsullar portfelini zәnginlәşdirmәk üzәrindә çalışır. Şirkәtin hәdәfi gәlәcәyin cәmiyyәtini vә iqtisadiyyatını formalaşdıran texnoloji tendensiyalarla ayaqlaşmağı öndә tutaraq yüksәk sürәtli mobil internet vә daimi bağlantını bütün abunәçilәr üçün tәmin etmәkdir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - İş ortaqları ilә әmәkdaşlıq perspektivlәrini müzakirә etmәk olar: uzun zaman dil tapa bilmәdiyiniz insanlarla ortaq mәxrәcә gәlә bilәrsiniz. Xırdalıqlar ikinci plana keçir, doğrudan da, vacib olan işlәrә diqqәt yönәltmәk lazımdır.



**Buğa** - Eyhamlardan qaçın, fikrinizi açıq-aşkar deyin, üstüörtülü danışığınızı anlamaya bilәrlәr. Planlaşdırılmamış sәfәrlәr yeni tanışlar tapmağa imkan yaradacaq. Fiziki iş vә idmanla mәşğul olmaq üçün münasib gündür.



**Əkizlәr** - Sözü insanların üzünә çırpırsınız vә bu, çoxlarının xoşuna gәlmir. Ancaq fikirlәrinizi açıq-aşkar söylәmәyiniz tәrәfdaşlarınızla ümumi dil tapmağa, hәmçinin xoşunuza gәlәn insanların rәğbәtini qazanmağa imkan verir.



**Xәrçәng** - Tamamilә maraq dairәnizdәn kәnar işlәrә vaxt sәrf edirsinizsә, nailiyyәt qazanacağınıza ümid etmәyin: nәticәlәr hәddәn artıq zәif vә sönük olacaq. Hәmfikirlәrlә ünsiyyәt üçün yaxşı gündür.



**Şir** - Kommersiya baxımından әla gündür. Bağladığınız sövdәlәr böyük gәlir vәd edir, gözlәmәdiyiniz yerdәn dә iri mәblәğdә pul ala bilәrsiniz. Peşәkar nüfuzunuz artır. Sizin rәyinizi daha yüksәk vәzifә tutan insanlar da dinlәyirlәr.



**Qız** - İşgüzar ünsiyyәt üçün әla gündür: görüşlәr mәhz siz istәyәn kimi keçir. Yeni layihәlәr üzәrindә işә başlamaq olar, uğuru çox gözlәmәk lazım gәlmәyәcәk. İş yerini dәyişmәk, yeni vәzifә başına keçmәk üçün uğurlu gündür.



**Tәrәzi** - Ünsiyyәt üçün xoş gündür, xeyli görüş vә söhbәt gözlәnilir. Tәәssüf ki, xoşagәlmәz insanlarla da görüş açılmazdır, amma siz pis tәsir altına düşmәyәcәk, özünüzü idarә etmәyә imkan vermәyәcәksiniz.



**Əqrәb** - Gün sakit keçir. Tәlәsmәdәn, vurnuxmadan problemlәri bir-bir hәll edir, başqalarına nümunә göstәrirsiniz. Peşәkar mövqelәrinizi möhkәmlәndirә, yeni tәrәfdaşlar tapa bilәrsiniz.



**Oxatan** - Enerji vә gücünüzün artdığını hiss edirsiniz. Özünüzә inamınız çoxalır. Bir qәdәr әvvәl mümkünsüz görünәn bәzi planlarınızı gerçәklәşdirmәyә nail olursunuz. Əvvәllәr dil tapa bilmәdiyiniz insanlar da sizә yardım edirlәr.



**Oğlaq** - Qәtiyyәtli, enerjilisiniz, sözü üzә deyirsiniz - bu, böyük uğur vәd etsә dә, әtrafınızdakılarla münasibәtlәrinizi ciddi surәtdә korlaya bilәr. Tәnqidi iradlardan çәkinin.



**Dolça** - Sәliqә vә ciddilik tәlәb edәn xırda işlәrlә mәşğul olun. Vaxtınızı düzgün bölüşdürün, gücünüzü lazım olmayan işlәrә sәrf etmirsiniz. Alış-veriş uğurlu olacaq. Yarımçıq qalmış bәzi mәsәlәlәri hәll etmәyiniz tәlәb oluna bilәr.



**Balıqlar** - Yaradıcı potensialınız çox yüksәkdir. Onun sayәsindә boz bir günü qeyri-adi vә unudulmaz edә bilәcәksiniz. Planlarınızı gerçәklәşdirә bilәcәksiniz. Bunlardan azacıq kәnara çıxmağınızın da sizә yalnız xeyri dәyәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Dünyanın әn gözәl küçәlәri...

**ABŞ-ın CNN xәbәr şәbәkәsi 2019-cu il üçün dünyanın әn gözәl küçәlәrinin siyahısını hazırlayıb. "AZƏRTAC" bildirir ki, siyahıda Yunanıstanın Mikonos adasında yerlәşәn Matoyanni küçәsi dә yer alıb.**

Matoyanni Nyu-Yorkun, Londonun, Parisin küçәlәri ilә rәqabәt aparır. CNN-nin tәrtib etdiyi siyahıya görә dünyanın әn gözәl küçәlәri aşağıdakılardır: Djinli, Çendu, Çin; "Convent Avenue", Harlem, Nyu-York, ABŞ; Lombard-strit, San-Fransisko, ABŞ; Kaminito, La Boca, Buenos-Ayres, Argentina; Fәlsәfә xiyabanı, Kyoto, Yaponiya; "Flask Walk", Xempsted, London, İngiltәrә; "Umbrella Sky Project", Aqeda, Portuqaliya; "Blue City", Codxpur, Hindistan; Monsoro meydanı, Paris, Fransa; "Hosier Lane", Melburn, Avstraliya; Neva prospekti, Sankt-Peterburq, Rusiya; "The Royal Crescent", Bat, İngiltәrә; Via dey Koronari, Roma, İtaliya; Xerştrasse, Bonn, Almaniya; Matoyanni, Mikonos, Yunanıstan; "The Dark Hedges", "Bregagh Road", Antrim, Şimali İrlandiya.

*Hazırladı: Ramil QULİYEV*


**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.